RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 166 (10186) 12 sentyabr 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Müstəqil və çoxtərəfli diplomatiya modeli

## Fərqli siyasi qütblərlə bərabərhüquqlu tərəfdaşlıq

## Azərbaycanın praqmatik xarici siyasət kursunun uğurudur

Azərbaycanın Qərb istiqamətindəki xarici siyasətində Avropa dövlətləri ilə münasibətlər xüsusi əhəmiyyətə malikdir. Aİ-nin 10-dan çox üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayan ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynayır. Avropa ilə enerji tərəfdaşlığını bu gün keyfiyyətcə tamamilə yeni mərhələyə daşıyan Azərbaycan 10-u Aİ üzvü olmaqla, 12 Avropa dövlətinə təbii qaz ixrac edir. Bu geniş coğrafiya Bakının Avropanın enerji təhlükəsizliyindəki strateji rolunu aydın göstərir. Təbii qazla yanaşı, xam neft və Xəzərdən Avropaya çəkilən "yaşıl enerji" kabeli layihəsi də Azərbaycanı qitənin bərpaolunan enerji keçidində önəmli tərəfdaşa çevirir.

Trans-Atlantik məkanla münasibətlərin dərinləşməsi də bu praqmatik xəttin mühüm tərkib hissəsidir. Son dönəmdə Amerika Birləşmiş Ştatları ilə münasibətlər qarşılıqlı maraqlara, bərabərhüquqlu tərəfdaşlığa və regional təhlükəsizlik prioritetlərinə əsaslanan dinamik inkişaf yolunu keçməkdədir. İki ölkə arasında strateji tərəfdaşlığın əsasını enerji təhlükəsizliyi, terrorizmə qarşı birgə mübarizə, nəqliyyat-logistika marşrutlarının təhlükəsizliyi təşkil edir. Bakı və Vaşinqton arasında qurulan tərəfdaşlıq platforması münasibətlərin institusional müstəvidə dərinləşməsinə imkan yaradır. ABŞ eyni zamanda Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olunmasına və regional iqtisadi inteqrasiyanın sürətlənməsində də dəstəyini davam etdirir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı önəmli rol Vaşinqton tərəfindən ardıcıl dəstəklənir. Müasir mərhələdə bu əməkdaşlıq ənənəvi karbohidrogen resursları ilə yanaşı, bərpaolunan enerji və "yaşıl texnologiya"lara keçid sahəsini də əhatə edir.

Qərb istiqamətində əldə olunan uğurlarla yanaşı, Azərbaycan Şərqin nəhəng iqtisadi və siyasi gücləri ilə də bərabərhüquqlu əlaqələrini sürətlə inkişaf etdirir. Bu baxımdan, Azərbaycan dünyanın aparıcı iqtisadi güclərindən biri olan Çin Xalq Respublikası ilə münasibətlərini yeni mərhələyə qaldıraraq strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Qarşılıqlı hörmət, suverenliyə və ərazi bütövlüyünə dəstək prinsipləri üzərində qurulan bu münasibətlər həm ikitərəfli formatda, həm də beynəlxalq platformalarda uğurla inkişaf edir. Azərbaycan Çinin qlobal "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olmaqla, özünün modern nəqliyyat və logistika infrastrukturu - Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhliz vasitəsilə Çin-Avropa arasında yüklərin daşınmasında etibarlı, təhlükəsiz və səmərəli marşrutu təmin edir. Paralel olaraq, iki ölkə arasında ticarət dövriyyəsi ardıcıl şəkildə genişlənir, Çin şirkətlərinin Azərbaycanda sənaye, bərpaolunan enerji, rəqəmsal texnologiyalar və infrastruktur layihələrində iştirakı dərinləşir. Bu sahələrdə Çinin qabaqcıl təcrübəsindən geniş istifadə olunur. Eyni zamanda Bakı və Pekin BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda səmərəli dialoqu davam etdirərək qlobal təhlükəsizlik və regional sabitliyin bərqərar olunmasında ortaq mövqedən çıxış edirlər. Bu çoxşaxəli tərəfdaşlıq bütövlükdə Avrasiya məkanında dayanıqlı iqtisadi tərəqqiyə xidmət edir.

Şərq-Qərb oxu üzrə qurulan tərəfdaşlıq qonşuluq siyasətində də özünü qabarıq göstərir. Azərbaycan regional təhlükəsizlik və iqtisadi inteqrasiya prinsiplərinə söykənərək Rusiya ilə münasibətlərini müttəfiqlik müstəvisində inkişaf etdirir. İki ölkə arasında tarixi və coğrafi amillərə əsaslanan bu münasibətlər 2022-ci ilin fevralında Moskvada imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı əlaqəsi haqqında Bəyannamə" ilə ən yüksək pilləyə qaldırılıb. İki dövlət arasında ticarət-iqtisadi əlaqələr dinamik şəkildə genişlənir, kənd təsərrüfatı, energetika, sənaye üzrə iri layihələr icra olunur. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi nəqliyyat sahəsində tərəfdaşlığın əsas xəttini təşkil edir.

Ölkəmizin xarici siyasət strategiyasının mühüm istiqamətlərdən biri də Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində dərinləşən inteqrasiya və Mərkəzi Asiya regionu ilə qurulan yüksək münasibətlərdir.

5

# Zəfər salnaməçisi



İkinci Qarabağ savaşında "Azərbaycan" qəzetinin hər bir əməkdaşı, sözün həqiqi mənasında, qələmini süngüyə çevirdi. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin "Qarabağ Azərbaycandır!" hayqırtısı və cəbhədən verdiyi müjdələr qəzetin hər sayında böyük coşqu ilə işıqlandırıldı. Jurnalistlərimiz təkcə xoş xəbərləri yazmadılar, düşmənin cəbhədən kilometrlərlə uzaqda yerləşən yaşayış məntəqələrimizi raket atəşinə tutaraq müharibə cinayətləri törətməsini də dünyaya çatdırdılar.

Bundan əlavə, qəzet xalqın döyüş ruhunu, arxa cəbhədəki həmrəyliyini və əsgərlərimizin igidliyini əks etdirən analitik yazılar, oçerklər və müsahibələr də dərc edirdi. "Azərbaycan" qəzeti İkinci Qarabağ müharibəsi dövründə tarixi hadisələrin canlı salnaməsini yaradaraq, Zəfər yolunun mühüm informasiya dəstəkçilərindən birinə çevrilmişdi.

Vətən müharibəsi günlərində qəzetin baş redaktoru Bəxtiyar Sadıqovun "Üç cəbhənin sərkərdəsi" yazısında Qələbəyə sarsılmaz inam öz əksini belə tapıb: "Biz hamımız bu müharibədən qələbə gözləyirik!

Biz hamımız bu müharibədə Ali Baş Komandan İlham Əliyevə güvənir və əminik ki, həsrətlə gözlədiyimiz qələbəyə bizi məhz böyük rəhbərimiz çatdıracaq!

Biz hamımız İlham Əliyevi indi daha böyük coşqu və məhəbbətlə sevir və bir xalq olaraq ətrafında yumruq kimi birləşmişik!

İlham Əliyev bu günlərdə dayanmadan, durmadan, istirahət etmədən üç cəbhənin hamısında böyük əzm və uğurla çalışır, əsl sərkərdə, müdrik rəhbər, uzaqgörən dövlət başçısı kimi xalqın etimad və etibarını ən yüksək səviyyədə doğruldur!

Yaşa Ali Baş Komandanımız!

Tarix bu xidmətlərinizi heç zaman unutmayacaq!

QƏLƏBƏ BİZİMLƏDİR!

QARABAĞ BİZİMDİR!"

6

# İslam həmrəyliyindən beynəlxalq hüquqa, siyasi dəstəkdən strateji tərəfdaşlığa



Azərbaycan-İƏT əlaqələrinin möhkəmliyi yüksəksəviyyəli qarşılıqlı səfərlərdə və görüşlərdə də özünü göstərir. İƏT Baş katiblərinin ölkəmizə səfərləri, Azərbaycan rəhbərliyi ilə görüşləri və təşkilatın müxtəlif tədbirlərində iştirakı münasibətlərin davamlı xarakter daşıdığını göstərir. 2006-cı ildə Bakıda İƏT Xarici İşlər Nazirləri Şurasının 33-cü konfransının keçirilməsi, 2017-2019-cu illərdə İƏT Baş katibi Yusif bin Əhməd Əl-Useyminin Azərbaycana səfərləri və Prezident İlham Əliyevlə görüşləri, 2021-ci ildə Baş katibin ölkəmizə səfəri çərçivəsində ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsinə verilən diqqət bu münasibətlərin yüksək səviyyədə saxlanıldığını göstərən faktlardır.

5

# Təxribat törətdilər, layiqli cavablarını aldılar

## 2022-ci ilin sentyabr döyüşləri erməni revanşistlərinin növbəti çöküşü oldu



Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həm 44 günlük Vətən müharibəsində, həm də ondan sonrakı antiterror əməliyyatlarında torpaqlarımızın işğalına son qoydu. Zabit və əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və qəhrəmanlıqlar göstərdilər. Sözün həqiqi mənasında, heç vaxt unudulmayacaq, daim qürurla xatırlanacaq bir tarix yazdılar.

6

# "Yeni əsrin müqaviləsi"nin 9 ili tamam olur



"Yeni əsrin müqaviləsi" ölkəmizin gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Sazişin bir hissəsi olaraq SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə yüksəldildi. Beynəlxalq tərəfdaş şirkətlərin layihənin icrası dövründə ARDNF-yə (Azərbaycan Respublikası Dövlət Neft Fondu) 3,6 milyard dollar bonus ödəyəcəkləri qərara alındı.

3

## F.R.Şəfiyevin Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərid Rauf oğlu Şəfiyev Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 sentyabr 2026-cı il*

## "Rəqabətin inkişafına və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair 2027-2029-cu illər üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, azad rəqabət mühitini gücləndirmək, inhisarçılıq fəaliyyətini aradan qaldırmaq, biznes və investisiya imkanlarını genişləndirmək, milli iqtisadiyyatın dayanıqlı inkişafını və qlobal çağırışlara hazır olmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Rəqabətin inkişafına və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair 2027-2029-cu illər üzrə Milli Fəaliyyət Planı" (bundan sonra - Milli Fəaliyyət Planı) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi:

3.1. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

3.2. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 sentyabr 2026-cı il*

## Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 22 iyul tarixli 731 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 22 iyul tarixli 731 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə "və mədəni, dini," sözləri "etnik, dini, mədəni, o cümlədən" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü hissə üzrə:

1.2.1. aşağıdakı məzmunda 3.1.3-1-ci yarımbənd əlavə edilsin:

"3.1.3-1. ölkədə, regionda və dünyada baş verən etnosiyasi və dini proseslərlə bağlı analitik-informasiya materialları və fəaliyyət proqramları hazırlamaq;";

1.2.2. 3.1.6-cı yarımbənddə "mədəni, dini və" sözləri "etnik, dini, mədəni, o cümlədən" sözləri ilə əvəz edilsin;

1.2.3. 3.1.10-cu yarımbənddə "mədəni, dini müxtəlifliyin tolerant" sözləri "etnik, dini, mədəni, o cümlədən linqvistik müxtəlifliyin və tolerantlığın" sözləri ilə əvəz edilsin;

1.2.4. 3.1.11-ci, 3.1.12-ci və 3.1.14-cü yarımbəndlər ləğv edilsin;

1.2.5. 3.1.16-cı yarımbənddə "bölməsinə" sözü "bölmələrinə" sözü ilə əvəz edilsin;

1.3. 4.3-cü bənddə "3 (üç)" sözləri "4 (dörd)" sözləri ilə, "2 (iki)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 sentyabr 2026-cı il*

## İqtisadi Şuranın 2027-ci ilin büdcə və iqtisadi proqnozlarına həsr olunmuş iclası olub

**İqtisadi Şuranın 2027-ci ilin büdcə və iqtisadi proqnozlarına həsr olunmuş iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, sentyabrın 11-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində cari iqtisadi vəziyyət və 2026-2030-cu illər üzrə yenilənmiş makroiqtisadi proqnozlar, 2027-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin proqnoz layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, 2027-2030-cu illərdə büdcə siyasətinin əsas məqsəd və hədəfləri, Ortamüddətli Xərclər Çərçivəsi, maliyyə-bank sektorunda cari vəziyyət və siyasət istiqamətləri və digər məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Sahil Babayevin və Mərkəzi Bankın sədri Taleh Kazımovun məruzələri dinlənilib. Təqdim olunan gündəliyə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar tərəfindən müzakirələr aparılıb.

İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla, 2027-ci ilin büdcə zərfinə daxil olan bütün sənəd və məlumatların Nazirlər Kabinetinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## Milli Məclisin komitə iclaslarında





Sentyabrın 11-də Milli Məclisin Elm və təhsil komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Anar İsgəndərov yeni sessiyada deputatların fəaliyyətinə uğurlar arzulayıb və gündəliyə 2 məsələnin daxil edildiyini bildirib. Komitə sədri, ilk növbədə, 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində Milli Məclisin Elm və təhsil komitəsinin fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, ötən sessiya dövründə komitənin 12 iclası keçirilib, ümumilikdə 16 məsələyə baxılıb.

Daha sonra Anar İsgəndərov gündəliyin ikinci məsələsi - Elm və təhsil komitəsinin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi barədə məlumat verib. O bildirib ki, növbəti sessiyada qanunvericilik təşəbbüsü əsasında təqdim olunmuş qanun layihələrinə baxılacaq. Bununla yanaşı, komitənin səlahiyyət dairəsinə daxil olan mövzular üzrə ictimai dinləmələrin və geniş müzakirələrin təşkili nəzərdə tutulur.

Müzakirələr zamanı komitə sədrinin müavini Fariz İsmayılzadə, üzvləri Bəxtiyar Əliyev, Ceyhun Məmmədov, Əziz Ələkbərov, Sevinc Fətəliyeva, Elçin Mirzəbəyli, Pərvin Kərimzadə, Mehriban Vəliyeva, Elnarə Akimova, Eldar Quliyev, Vasif Qafarov və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək fikir və təkliflərini bildiriblər.

İclasın sonunda ötən sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub, 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib.

* * *

Sentyabrın 11-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib. Komitə sədri Hicran Hüseynova iclası açaraq, qarşıdakı sessiyada komitə üzvlərinə fəaliyyətlərində uğurlar arzulayıb və gündəliyə 2 məsələnin daxil edildiyini bildirib.

Komitə sədri, ilk öncə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə Ailə, qadın və uşaq məsələləri komitəsində görülən işlər barədə məlumat verib. Qeyd edilib ki, ötən sessiya ərzində komitənin 11 iclası keçirilib, ümumilikdə 15 məsələyə baxılıb, bir ictimai dinləmə təşkil olunub, vətəndaşların müraciətləri isə mütəmadi olaraq qəbul edilərək dinlənilib. Bununla belə, hesabat dövründə komitədə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olmuş 400-dən artıq ərizə və məktuba, digər müxtəlif xarakterli sənədlərə, elektron poçt vasitəsilə daxil olmuş məktublara baxılıb və tədbir görülməsi üçün aidiyyəti təşkilatlara göndərilib.

Daha sonra Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinin qarşıdakı payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, sənəddə qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin müzakirəsi, komitənin fəaliyyət sahəsi çərçivəsində ictimai dinləmələrin təşkili, vətəndaşlarla görüşlərin keçirilməsi və digər məsələlər öz əksini tapıb.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə sədrinin müavini Jalə Əliyeva, komitə üzvləri Tamam Cəfərova, İlham Məmmədov, Pərvin Kərimzadə, Mehriban Vəliyeva, Səbinə Xasayeva, Ülviyyə Ağayeva, Müşfiq Məmmədli, Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək öz fikirlərini bildiriblər.

İclasda komitənin ötən sessiya dövründə görülən işlər barədə hesabatı məqbul hesab olunub, 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi təsdiqlənib.

***"Azərbaycan"***

## Azərbaycanda İqlim Dəyişiklikləri üzrə Gənclərin Lokal Konfransı keçirilir

**Sentyabrın 11-də Azərbaycanda ikinci dəfə ikigünlük "İqlim Dəyişiklikləri üzrə Gənclərin Lokal Konfransı - LCOY Azərbaycan 2026" öz işinə başlayıb.**






AZƏRTAC xəbər verir ki, tədbir ölkənin müxtəlif bölgələrindən gənc iqlim liderlərini, dövlət qurumlarının və beynəlxalq təşkilatların nümayəndələrini, həmçinin ölkənin aparıcı ekspertlərini bir araya gətirib.

LCOY (Local Conference of Youth) Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) daxilində fəaliyyət göstərən rəsmi gənclər şəbəkəsi YOUNGO-nun təşəbbüsü ilə keçirilir və gənclərin iqlim siyasətində iştirakını təmin etmək, innovativ ideyaların mübadiləsinə şərait yaratmaq və qlobal iqlim gündəminə töhfə vermək üçün əhəmiyyətli platforma rolunu oynayır. Hər il dünyanın 50-dən çox ölkəsində təşkil edilən bu konfranslar milli gənclik mövqelərinin qlobal iqlim siyasəti prosesinə daxil olmasının əsas mexanizmidir.

"LCOY Azerbaijan 2026"nın əsas təşkilatçısı dayanıqlı inkişaf, ekoloji təhsil və gənclərin ətraf mühitlə bağlı qərarların qəbuluna fəal cəlb edilməsi sahəsində fəaliyyət göstərən "Eko-Sfera" Ekoloji-Sosial Mərkəzidir. Təşkilat YOUNGO-nun LCOY İş Qrupu tərəfindən ardıcıl ikinci il Azərbaycanda konfransın təşkilatçısı kimi seçilib.

Konfransın təşkilinə dəstək göstərən tərəfdaşlar sırasında BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyi, akademik tərəfdaşlar ADA Universiteti və Bakı Dövlət Universiteti, həmçinin region gənclərinin konfransa cəlb olunmasına dəstək verən "Regional İnkişaf" İctimai Birliyi yer alıb.

Konfransın birinci günü və açılış mərasimi ADA Universitetində olub. Açılış mərasimində ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Muxtar Babayev, COP29 üzrə BMT-nin İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai, Bakı Dövlət Universitetinin prorektoru Şahin Pənahov, FAO-nun Azərbaycandakı nümayəndəsinin müavini Bariz Mehdiyev, "Regional İnkişaf" İctimai Birliyinin Layihələr və könüllülərlə iş şöbəsinin müdiri Adilə Əliyeva və "EkoSfera" Ekoloji-Sosial Mərkəzin rəhbəri, COP29 Təşkilat Komitəsinin üzvü Firuzə Sultanzadə çıxış edərək, iqlim dəyişikliyi ilə mübarizədə gənclərin liderlik missiyasını və onların qərarvermə proseslərinə cəlb edilməsinin əhəmiyyətini vurğulayıblar. Rəsmi hissənin sonunda ADA Universitetinin Kənd Təsərrüfatı və Qida Elmləri fakültəsinin dekanı, professor Matteo Vittuarinin onlayn videomesajı nümayiş olunub.

Açılışdan sonra "LCOY, YOUNGO və UNFCCC - Kontekst Təqdimatı" sessiyası keçirilib. İştirakçılar LCOY-un qlobal şəbəkədəki yeri, YOUNGO-nun UNFCCC daxilindəki rolu və Milli Gənclər Bəyanatının COP31-ə gedən yolu ilə tanış olublar. Sessiya çərçivəsində təşkil edilmiş interaktiv "İqlim xəritəsi" fəaliyyəti zamanı gənclər Azərbaycan xəritəsi üzərində öz regionlarının ən aktual iqlim narahatlıqlarını qeyd ediblər.

"Dayanıqlı Azərbaycan: İnfrastruktur və qida sistemləri" başlığı altında keçirilən plenar sessiyanın birinci hissəsində "Bakı Ağ Şəhər"in direktor müavini Xaliq Orucov, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təmsilçisi Nərgiz Qaracayeva və Firuzə Sultanzadə çıxış ediblər.

Plenar sessiyanın ikinci hissəsində iqlim dəyişikliyinin Azərbaycanın kənd təsərrüfatına təsiri, iqlimə uyğun kənd təsərrüfatı prinsipləri, ekoloji sertifikasiya və qida standartları, ərzaq təhlükəsizliyi və dayanıqlı istehlak mövzuları müzakirə olunub.

Günün ikinci yarısında iki paralel sessiya da keçirilib.

Birinci günün yekun hissəsində Milli Gənclər Bəyanatının hazırlanması üzrə giriş sessiyası təşkil olunub. Gənclər bəyanatın quruluşu və siyasi tələbin elementləri ilə tanış olub, nümunə tapşırıqlar üzrə məşq edib və elektron səsvermə vasitəsilə bəyanatda yer alacaq prioritet mövzuları özləri müəyyənləşdiriblər.

Konfrans işini sentyabrın 12-də Quba rayonunda davam etdirəcək.

## Bakıda Azərbaycan-Türkiyə V Enerji Forumu keçirilib

**Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın həmsədrliyi ilə Bakıda Azərbaycan-Türkiyə V Enerji Forumu keçirilib.**




AZƏRTAC xəbər verir ki, energetika naziri Pərviz Şahbazov Azərbaycan - Türkiyə münasibətlərinin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi yeni mərhələdə enerji əməkdaşlığının milli və regional enerji təhlükəsizliyi, enerji axınlarının şaxələndirilməsi, elektrik sistemlərinin inteqrasiyası və enerji bağlantılarının gücləndirilməsi istiqamətində inkişaf etdiyini bildirib. Qeyd olunub ki, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə enerji tərəfdaşlığı bu dövrdə mühüm nəticələrlə zənginləşib. İğdır-Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi, "Türkiye Petrolleri"nin "Şəfəq-Asiman" layihəsinə qoşulması, "Abşeron" yatağından hasil olunacaq qazın bir hissəsinin Türkiyəyə ixracına dair razılaşma, Azərbaycan qazının Türkiyə üzərindən yeni Avropa bazarlarına və Suriyaya nəqli, eləcə də SOCAR-ın Türkiyədə 870 meqavat gücündə elektrik stansiyasının alınması kimi yeni investisiyaları əməkdaşlığın genişlənən miqyasının göstəriciləri kimi dəyərləndirilib. Bildirilib ki, indiyədək mövcud neft-qaz infrastrukturu vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyə üzərindən beynəlxalq bazarlara ümumilikdə 561 milyon ton neft və 196 milyard kubmetr qaz tədarük edilib. Türkiyəyə nəql olunan Azərbaycan qazının həcmi 130 milyard kubmetr, bunun TANAP vasitəsilə tədarük olunan hissəsi isə 40 milyard kubmetr təşkil edib. Təkcə bu ilin 8 ayında Türkiyə 6,2 milyard kubmetr, Türkiyə üzərindən Avropa ölkələri 7,5 milyard kubmetr, Suriya isə 1 milyard kubmetr Azərbaycan qazı ilə təchiz edilib.

Çıxışda enerji əməkdaşlığının növbəti strateji istiqaməti kimi elektrik enerjisi və "yaşıl enerji" dəhlizləri xüsusi vurğulanıb: "Rəqəmsallaşma "yaşıl transformasiya"nı sürətləndirərkən, süni intellekt, data mərkəzləri və genişlənən elektrikləşmə enerji sistemləri qarşısında yeni tələblər yaradır. Elektrik enerjisi iqtisadi inkişafın, rəqəmsal transformasiyanın və enerji təhlükəsizliyinin əsas strateji resurslarından birinə çevrilir. Bu reallıq yeni generasiya gücləri ilə yanaşı, daha güclü şəbəkələr, enerji saxlanc sistemləri, ölkələri və regionları birləşdirən yeni elektrik bağlantıları tələb edir. Bu proses Azərbaycan-Türkiyə enerji tərəfdaşlığı üçün də yeni strateji üfüqlər açır. Neft və qaz layihələri ilə Şərqlə Qərb arasında yaratdığımız enerji bağlantılarını indi elektrik enerjisi və "yaşıl enerji" dəhlizləri ilə genişləndirərək, Xəzərin və Mərkəzi Asiyanın "yaşıl enerji"sinin Azərbaycan və Türkiyə üzərindən Avropaya çatdırılması ölkələrimizin Avrasiyanın enerji xəritəsinin yenidən formalaşmasında strateji rolunu gücləndirən perspektivlərdir".

Türkiyə şirkətlərinin Azərbaycanın "yaşıl enerji" sektorunda iştirakının genişləndiyi qeyd olunub. Enerji keçidinin rəqəmsallaşma və süni intellektlə getdikcə daha sıx bağlı olduğu nəzərə alınaraq, Azərbaycan-Türkiyə Enerji Forumu çərçivəsində bu xüsusda əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd edilib. Həmçinin Azərbaycanın COP31-ə evsahibliyi edəcək qardaş Türkiyəyə dəstək verməyə hazır olduğu bildirilib.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar isə deyib ki, bizim münasibətlərimiz adi qonşuluq və ya ticari tərəfdaşlıq münasibətləri deyil: "Əməkdaşlığımız sarsılmaz qardaşlığa, qarşılıqlı etimada və tarixə düşmüş uğurlara əsaslanır. Bu forum "Bir millət, iki dövlət" şüarı ilə ortaq gələcəyimizi konkret layihələrə çevirdiyimiz strateji platformadır. Naxçıvanla, eləcə də Türkiyə, Azərbaycan, Gürcüstan və Bolqarıstanı bir araya gətirən layihələri yalnız infrastruktur layihəsi kimi deyil, uzunmüddətli regional enerji əməkdaşlığının əsasını təşkil edən strateji addım kimi görürük".

Forumda SOCAR-ın prezidenti Rövşən Nəcəf, "Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Balababa Rzayev, BOTAŞ-ın baş direktoru Abdulvahit Fidan, TPAO-nun baş direktoru Cem Erdem və Türkiyə Elektrik Ötürmə Şirkətinin (TEİAŞ) baş direktoru Mustafa Pustu çıxış ediblər.

Yekunda Türkiyə-Azərbaycan V Enerji Forumunun protokolu imzalanıb.

# Diplomatik korpusun nümayəndələri Xankəndi Mədəniyyət Mərkəzində olublar





**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Xankəndi şəhərində əsaslı şəkildə yenidən qurulmuş Mədəniyyət Mərkəzində olublar.**

AZƏRTAC xəbər verir ki, Mədəniyyət Mərkəzində Xankəndi şəhəri, Xocalı və Ağdərə rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov şəhərdə aparılan genişmiqyaslı yenidənqurma və tikinti işləri barədə məlumat verib. Qeyd edib ki, ilk sakinlər artıq Xankəndiyə, eləcə də Kərkicahan kəndinə qayıdırlar.

"Bu gün Xankəndidə 28 min insan yaşayır, işləyir və təhsil alır", - deyə xüsusi nümayəndə qeyd edib.

E.Yusubov diplomatik korpusun nümayəndələrinin şəhərdə aparılan işlər və eldə olunan yeniliklərlə yerində tanış olacaqlarını bildirib.

Prezidentin xüsusi nümayəndəsi əlavə edib ki, Xankəndinin yeni Baş planına uyğun olaraq yararsız tikililərin sökülməsi prosesi intensivləşib. Sökülən tikililərin yerində müasir tələblərə cavab verən yaşayış binalarının və yaşayış məhəllələrinin inşası ilə bağlı layihələndirmə işlərinə başlanılıb. Yaxın vaxtlarda şəhərdə müasir tikililərin inşasının şahidi olmaq mümkün olacaq.

Prezidentin xüsusi nümayəndəsi həmçinin Xankəndidə dəmir yolu və avtovağzal kompleksinin tikintisinin regionun mühüm infrastruktur layihələrindən biri olduğunu vurğulayıb.

Artıq 40 mindən çox keçmiş azərbaycanlı məcburi köçkün Qarabağa qayıdıb və daha çoxu da qayıdacaq. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Mədəniyyət Mərkəzindəki çıxışı zamanı bu barədə danışıb. Bildirib ki, 2020-ci ildən etibarən 45-dən çox yaşayış məntəqəsi yenidən qurularaq keçmiş məcburi köçkünlərin istifadəsinə verilib.

H.Hacıyev vurğulayıb ki, hazırda Qarabağda təxminən 100 min mülki şəxs yaşayır, işləyir və təhsil alır.

"Bu da Azərbaycanın münaqişədən sonrakı bərpa və yenidənqurma sahəsində topladığı unikal bir təcrübədir. Hesab edirik ki, Azərbaycanın təcrübəsi münaqişələrdən və müharibələrdən əziyyət çəkən dünyanın digər hissələrində də tətbiq üçün faydalı ola bilər", - deyə Prezidentin köməkçisi əlavə edib.

H.Hacıyev mina probleminə də toxunub: "Əlbəttə ki, bu, bizim bərpa və yenidənqurma səylərimizə mane olur, lakin bizim ən qısa zamanda bərpa və yenidənqurma işlərini təmin etmək, keçmiş məcburi köçkünlərimizin ləyaqətli və təhlükəsiz qayıdışını təmin etmək əzmimizi və qətiyyətimizi sarsıda bilməz".

H.Hacıyev çıxışında 25 il əvvəl bu gün, sentyabrın 11-də Nyu York şəhərində Amerika Birləşmiş Ştatlarına qarşı dəhşətli və amansız bir terror aktının törədildiyini xatırladıb. Azərbaycanın da, xüsusilə 90-cı illərin əvvəllərində terrordan əziyyət çəkmiş bir ölkə olduğunu qeyd edib.

Prezidentin köməkçisi işğal illəri ərzində Azərbaycanın mədəni irsinin dağıntılara məruz qaldığını xatırladaraq bu irsin bərpası və qorunması üçün əlavə səylər göstərildiyini də qeyd edib.

Ermənistanla sülh prosesi barədə də danışan Hikmət Hacıyev bildirib ki, biz sülh şəraitində yaşamağı öyrənirik və bu istiqamətdə irəliləyirik. "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan üçün münaqişə bitib. Anladıq ki, sülh reallıqları altında yaşamaq çox böyük hissdir. Azərbaycan regionumuzda davamlı sülhün bərqərar olması və daha da möhkəmləndirilməsi üçün əlavə səylər göstərməyə davam edəcək", - deyə Prezidentin köməkçisi əlavə edib.

Azərbaycan və Ermənistan liderlərinin Bişkek görüşünə də diqqət çəkən H.Hacıyev Azərbaycan və Ermənistan liderləri arasında baş tutan görüşün çox konstruktiv mühitdə keçdiyini qeyd edib.

Sonda diplomatik korpusun nümayəndələrinə Mədəniyyət Mərkəzi barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, Xankəndi şəhərində yerləşən Mədəniyyət Mərkəzinin binası XX əsrin 60-70-ci illərində tikilib. Uzunmüddətli istismar nəticəsində binanın yükdaşıyan konstruksiyalarında aşınmalar, deformasiyalar və müxtəlif zədələnmələr yaranmışdı.

Aparılmış əsaslı yenidənqurma işləri nəticəsində Mədəniyyət Mərkəzində müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, kino və səhnə fəaliyyəti, yaradıcılıq, təlim, məşğələ, inzibati idarəetmə, turizmyönümlü xidmətlərin həyata keçirilməsi üçün zəruri şərait yaradılıb.

# Diplomatik korpusun nümayəndələri Şuşada

**Qarabağ və Şərqi Zəngəzura səfər edən diplomatik korpusun nümayəndələri Şuşanın bir sıra tarixi-mədəni yerlərində olublar.**




AZƏRTAC xəbər verir ki, Cıdır düzünə gələn diplomatlara bu ərazinin tarixi-mədəni əhəmiyyəti barədə məlumat verilər. Qonaqlar Cıdır düzündən açılan möhtəşəm mənzərəni seyr ediblər.

Sonra 2001-ci il sentyabrın 11-də ABŞ-nin Nyu York şəhərində törədilən və üç mindən çox insanın həlak olduğu terror aktlarının qurbanlarının xatirəsi anılıb.

Daha sonra diplomatlar Şuşada Aşağı Gövhər ağa məscidinə gəliblər.

Qeyd olunub ki, Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər ağa məscidində əsaslı bərpa işləri aparılıb. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər ağa məscidi İbrahim xanın qızı Gövhər ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Məscid şəhərin tarixi-memarlıq rəmzlərindən biridir.



Diplomatlar Şuşada yeni salınan Qarabağ küçəsi ilə tanış olub, dövlət-özəl tərəfdaşlığı çərçivəsində yerli investorlar tərəfindən inşa edilən müxtəlif təyinatlı 10 binaya baxış keçiriblər. Bu binalar arasında mehmanxana, apart hotel, ofis və ictimai iaşə obyektləri yer alır.

Qonaqlara bildirilib ki, tikinti işləri zamanı yüksək keyfiyyət standartlarının qorunması ilə yanaşı, binaların Şuşanın tarixi-memarlıq simasına və ümumi görünüşünə uyğunluğuna da xüsusi diqqət yetirilib.

Daha sonra diplomatlar Şuşa şəhərində tarixi memarlıq abidələrinə baxış keçiriblər.

Tarix-memarlıq abidəsi olan "Sadıqcanın evi"ni ziyarət edən qonaqlara burada görülmüş işlər barədə məlumat verilib. Qeyd olunub ki, Şuşa şəhərinin işğalı dövründə bina uzun müddət baxımsız qalıb, nəticədə dam örtüyündə, döşəmələrdə və daş hörgülərdə ciddi aşınma və dağıntılar baş verib. Tikilinin memarlıq elementlərinin bir hissəsi zədələnib, mühəndis-kommunikasiya sistemləri tamamilə yararsız vəziyyətə düşüb. Azərbaycan Prezidentinin 2022-ci ildə imzaladığı sərəncama əsasən, görkəmli musiqiçi, tarzən, bəstəkar Mirzə Əsəd oğlu Sadıqcan - Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası məqsədilə vəsait ayrılıb.

Xarici korpusun nümayəndələri Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini də ziyarət ediblər.

Diplomatlar Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarası kimi tanınmış binaya da çəkiblər. Bildirilib ki, ölkə əhəmiyyətli memarlıq abidəsi XVIII əsrə aiddir.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Şuşa qala divarlarını ziyarət ediblər.

Xarici nümayəndələrə Şuşa şəhərinin tarixi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Daha sonra diplomatik korpusun nümayəndələri Şuşada birinci yaşayış kompleksində sakinlərlə görüşüb, burada yaradılan şəraitlə tanış olublar.

# "Yeni əsrin müqaviləsi"nin 9 ili tamam olur

**2017-ci il sentyabrın 14-də "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsinin yeni dövrü başlandı. AÇG-nin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişə düzəliş edildi və yenidən tərtib olunmuş sənəd imzalandı. Yeni saziş Milli Məclis tərəfindən həmin il oktyabrın 31-də ratifikasiya olundu.**



AÇG-nin tammiqyaslı işlənməsini "Əsrin müqaviləsi" kimi tanıdığımızdan sözügedən saziş də "Yeni əsrin müqaviləsi" adlandırıldı. Çünki bununla nəhəng AÇG yataqlar blokunun işlənilməsinin müddəti 2050-ci ilin əvvəlinə qədər uzadıldı. Üstəlik də, saziş ölkəmiz üçün daha əlverişli şərtlərlə imzalandı. Baxmayaraq ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" də Azərbaycanın maraqlarını tam təmin edirdi.

"Yeni əsrin müqaviləsi" ölkəmizin gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Sazişin bir hissəsi olaraq SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə yüksəldildi. Beynəlxalq tərəfdaş şirkətlərin layihənin icrası dövründə ARDNF-yə (Azərbaycan Respublikası Dövlət Neft Fondu) 3,6 milyard dollar bonus ödəyəcəkləri qərara alındı. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsinin isə 75 faiz təşkil edəcəyi bildirildi. Bir vacib məqam da odur ki, tərəfdaşların tərkibində dəyişiklik olmadı. O cümlədən BP şirkəti layihənin operatoru olaraq qaldı. Bu da Prezident İlham Əliyevin yaratdığı möhkəm beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platformasının bir daha təsdiqidir.

"Yeni əsrin müqaviləsi" uğurla irəliləyir. Bunu ACE ("Azəri Mərkəzi Şərqi") platformasından hasilatın təhlükəsiz və ahəngdar davam etməsi də göstərir. ACE platforması ilk il yarıma yaxındır hasilata başlayıb. AÇG-nin bu ilin birinci yarısında verdiyi təxminən 59 milyon barel neftdə onun da payı var. Belə ki, bu qurğudan gündəlik 26 min 400 barel neft hasil olunur.

ACE platformasının təhlükəsiz şəkildə işə salınması və indi də uğurla fəaliyyət göstərməsi 9 il əvvəl AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin müddətinin uzadılmasından sonra layihə tərəfdaşlarının qəbul etdiyi ilk böyük investisiya qərarının reallaşmasıdır. ACE sazişinin özü isə müəllifi Ümummilli Lider Heydər Əliyev olan yeni neft strategiyamızın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin və zamanın tələbləri baxımından inkişaf etdirilərək yeni nailiyyətlər qazanmasının daha bir göstəricisidir .

Xatırladaq ki, "Azəri-Çıraq-Günəşli"nin hasilat platformaları bunlardır: "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq" və ACE.

ACE dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında quraşdırılmış yeni hasilat, qazma və yaşayış platformasıdır. Göründüyü kimi, qurğu özünün "Azəri Mərkəzi Şərqi" adını da yaxın qonşularından alıb.

ACE-nin dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) tikilib. Blokun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğunun tikinti işləri üç il çəkib və təhlükəsiz şəkildə, yeni heç bir bədbəxt hadisəyə yol verilmədən tamamlanıb.

Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri isə Bibiheybətdəki tikinti-quraşdırma sahəsində aparılıb. Üst modullara neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların çəkisi 19 min 600 tondur. Bu qurğu "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib.

Qeyd edək ki, 2022-ci il dekabrın 13-də Prezident İlham Əliyev BDÖZ sahəsinə baş çəkərək dayaq blokunun dənizə yola salınması prosesinə xeyir-dua vermişdir.

BP bu qurğunun texnoloji və rəqəmsal baxımdan şirkətin dünyada ən qabaqcıl, həmçinin qurudan idarə etdiyi ilk platforması olduğunu bildirib. ACE gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil ediləcəyi proqnozlaşdırılır.

ACE-dən hasil olunan neft əvvəlcə platformadakı texniki emal qurğularından keçərək 30 düymlük mövcud sualtı ixrac boru kəmərinə qoşulmuş yeni yataqdaxili xətlə təxminən 130 kilometr yol qət edərək Səngəçal terminalına çatdırılır. Platformadan ilk neft 2023-cü ilin sonunda qazılmağa başlanmış birinci quyudan 2024-cü ilin aprelində alınıb.

"ACE, həqiqətən də, öz mühəndislik kreativliyi, qabaqcıl rəqəmsal texnologiyası və avtomatlaşdırmalarına görə tam seçilir. Qürur duyuruq ki, "gələcəyin platforması" olduğuna inandığımız belə bir qurğunu uğurla ərsəyə gətirmişik". Operator olan BP şirkəti "Azəri-Çıraq-Günəşli"nin ən gənc platformasının üstünlüklərini bir daha belə vurğulayır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Baş Prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstanda səfərdədir





**Qazaxıstanlı həmkarının dəvəti əsasında Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 10-da Qazaxıstanın Türkistan şəhərinə rəsmi səfərə gəlib.**

Qazaxıstan baş prokuroru Berik Asılovla ikitərəfli görüşdə ev sahibi dövlətlərimiz arasında müxtəlif istiqamətlər üzrə ardıcıl şəkildə genişlənən əməkdaşlığın, xüsusilə prokurorluq orqanları arasında formalaşmış six və səmərəli əlaqələrin yüksək səviyyəsindən məmnunluğunu bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını bildirərək, təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan-Qazaxıstan münasibətlərinin siyasi, iqtisadi, ticari, nəqliyyat, mədəni və digər sahələrdə ardıcıl şəkildə inkişaf etdiyini vurğulayıb.

Baş prokuror bildirib ki, iki ölkə rəhbərinin siyasi iradəsi və qarşılıqlı etimada əsaslanan münasibətləri dövlətlərimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik əlaqələrinin daha da möhkəmlənməsinə mühüm töhfə verir. Bu baxımdan, 24 avqust 2022-ci ildə Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə"nin ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ olduğunu qeyd edib. Bu prosesin prokurorluq orqanları arasında əməkdaşlığa da münbit zəmin yaratdığını qeyd edən Kamran Əliyev həm ikitərəfli münasibətlər, həm də çoxtərəfli platformalar və beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən qarşılıqlı fəaliyyətin əhəmiyyətini vurğulamış, iki ölkənin prokurorluq orqanları arasında mövcud əməkdaşlığın gələcəkdə də davamlı şəkildə inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Baş prokuror həmçinin 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işlərinə qardaş Qazaxıstanın verdiyi dəstəyi xüsusi vurğulayıb. O, Qazaxıstan xalqının Azərbaycan xalqına hədiyyəsi olaraq Füzuli şəhərində inşa edilmiş Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin 12 mart 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə açılışını ölkələrimiz və xalqlarımız arasında möhkəm dostluq və qardaşlıq münasibətlərinin bariz nümunəsi kimi qeyd edib.

Eyni zamanda həmin tarixdə dövlət başçılarının Füzulidə inşa olunacaq Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanış olmalarını və bu layihənin icrasında Qazaxıstan şirkətinin də iştirakını iki ölkə arasında əməkdaşlığın işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində də uğurla davam etdirilməsinin göstəricisi kimi dəyərləndirib.

Görüş zamanı qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər ətrafında müzakirələr aparılıb, əməkdaşlığın perspektiv istiqamətləri və gələcək fəaliyyətin prioritetləri barədə fikir mübadiləsi keçirilib.

Daha sonra baş prokuror Kamran Əliyev sentyabrın 11-də Türküstan şəhərində Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Baş Prokurorları Şurasının 5-ci iclasında iştirak edib.

Baş prokuror çıxışında həmin tədbirin yüksək səviyyədə təşkilinə görə Qazaxıstan Respublikasının baş prokuroru Berik Asılova minnətdarlığını bildirib. O, Azərbaycan Respublikasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi şəhərsalma və memarlıq sahəsində qanunçuluğun təmin edilməsində prokurorluq orqanlarının rolu mövzusunda çıxış edib.

Baş prokuror qeyd edib ki, ölkəmiz iqtisadi cəhətdən inkişaf etdikcə şəhərlərimizin siması da dəyişərək modernləşmişdir. Bununla paralel olaraq, Azərbaycan öz tarixi memarlıq mirasının və ənənələrinin qorunmasına da xüsusi həssaslıqla yanaşır.

Tədbir çərçivəsində həmçinin Türkiyə Respublikasının baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi heyətlə ikitərəfli görüş keçirilmişdir. Görüşdə ölkələrimiz arasında tarixi qardaşlıq münasibətlərinin, xüsusilə dövlət başçılarımız İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasındakı dostluq əlaqələrinin türk dünyasının birliyinin möhkəmləndirilməsi təməlində durması vurğulanmışdır. Daha sonra prokurorluq arasında əməkdaşlıqla bağlı qarşılıqlı maraq kəsb edən məsələlər, eyni zamanda birgə beynəlxalq tədbirlərin təşkili ətrafında fikir mübadiləsi aparılmışdır.

Nümayəndə heyətinin səfəri davam edir. Tədbir çərçivəsində bir sıra ölkələrin nümayəndə heyətləri ilə görüşlərin keçirilməsi nəzərdə tutulur.

***"Azərbaycan"***

## "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 609 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 291** **Bakı şəhəri, 10 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 609 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 mart tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 240 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Abidə qoruqlarının nümunəvi Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

"2.1.6-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə tabeliyində olduğu quruma məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin tabeliyində olduğu qurumun icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

1.2. 5.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin.

2. "Azərbaycan Respublikasının "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun və "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğunun əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 220 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 867 (Cild I); 2024, № 9, maddə 1095; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun Əsasnaməsi" üzrə:

2.1.1. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

"2.1.6-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

2.1.2. 5.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğunun Əsasnaməsi" üzrə:

2.2.1. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

"2.1.6-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

2.2.2. 5.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 sentyabr tarixli 227 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 873 (Cild I) ilə təsdiq edilmiş "Yanar dağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğu haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

"2.1.6-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

3.2. 5.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 22 sentyabr tarixli 150 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 860 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğunun mühafizə (bufer) zonasının xüsusi hüquqi rejimi haqqında Əsasnamə"nin 4.9-cu bəndində aşağıdakı dəyişikliklər edilsin:

4.1. birinci cümləyə "görərkən" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyəti həyata keçirərkən" sözləri əlavə edilsin;

4.2. üçüncü cümləyə "işləri" sözündən sonra "və minatəmizləmə fəaliyyəti" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 oktyabr tarixli 285 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1206 (Cild I); 2024, № 2, maddə 246; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun xüsusi rejimi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.16-cı bənd üzrə:

5.1.1. birinci cümləyə "görərkən" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyəti həyata keçirərkən" sözləri əlavə edilsin;

5.1.2. üçüncü cümləyə "işləri" sözündən sonra "və minatəmizləmə fəaliyyəti" sözləri əlavə edilsin;

5.2. 2.17-ci bəndin birinci cümləsinə "tarixi" sözündən əvvəl ", habelə minatəmizləmə fəaliyyəti" sözləri əlavə edilsin.

6. "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun, "Qədim Şəmkir Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun və "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 mart tarixli 78 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 297 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Qərarla təsdiq edilmiş "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi" üzrə:

6.1.1. aşağıdakı məzmunda 3.1.4-1-ci yarımbənd əlavə edilsin:

"3.1.4-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

6.1.2. 4.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin razılığı olmadan minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin;

6.2. "Qədim Şəmkir Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi" üzrə:

6.2.1. aşağıdakı məzmunda 3.1.4-1-ci yarımbənd əlavə edilsin:

"3.1.4-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

6.2.2. 4.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin razılığı olmadan minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin;

6.3. "Orta əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi" üzrə:

6.3.1. aşağıdakı məzmunda 3.1.4-1-ci yarımbənd əlavə edilsin:

"3.1.4-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

6.3.2. 4.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin razılığı olmadan minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 1 iyul tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 856 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

7.1. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

"2.1.6-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

7.2. 4.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 iyun tarixli 323 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 742 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisinin xüsusi rejimi"nə aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

"2.9-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruq ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Nazirliyə məlumat verilir. Həmin ərazidə minatəmizləmə fəaliyyəti Nazirliyin icazəsi ilə davam etdirilir.".

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 sentyabr tarixli 431 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1094 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

9.1. aşağıdakı məzmunda 2.1.5-1-ci yarımbənd əlavə edilsin:

"2.1.5-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Agentliyə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Agentliyin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

9.2. 5.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 sentyabr tarixli 432 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1095 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğunun Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

10.1. aşağıdakı məzmunda 2.1.5-1-ci yarımbənd əlavə edilsin:

"2.1.5-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Agentliyə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Agentliyin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

10.2. 5.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 mart tarixli 72 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 3, maddə 283 (Cild I) ilə təsdiq edilmiş "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

11.1. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

"2.1.6-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Nazirliyə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Nazirliyin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

11.2. 4.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin.

12. "Pir Hüseyn Xanəgahı" Tarix-Memarlıq Qoruğunun və Zaqatala Tarix-Mədəniyyət Qoruğunun əsasnamələrinin təsdiq edilməsi və "Zaqatala Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1984-cü il 7 may tarixli 155 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 128 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 416 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

12.1. həmin Qərarla təsdiq edilmiş "Pir Hüseyn Xanəgahı" Tarix-Memarlıq Qoruğunun Əsasnaməsi" üzrə:

12.1.1. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

"2.1.6-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Nazirliyə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Nazirliyin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

12.1.2. 5.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin;

12.2. həmin Qərarla təsdiq edilmiş "Zaqatala Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi" üzrə:

12.2.1. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

"2.1.6-1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Nazirliyə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Nazirliyin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;";

12.2.2. 5.1.2-ci yarımbəndə "aparılmasına" sözündən sonra ", habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 375-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 293** **Bakı şəhəri, 11 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 375-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 574; 2025, № 3, maddə 282; 2026, № 6, maddə 591; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 29 iyul tarixli 245 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2.7-ci yarımbənddə "və ya digər qanuni əsaslarla haqq müqabilində" sözləri "(haqq müqabilində) və ya digər qanuni əsaslarla Qanunun müvafiq olaraq 1.0.4-cü və 1.0.5-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

1.2. 2.2-ci bəndin birinci cümləsinə "sərnişin daşımalarında" sözlərindən sonra ", habelə qeyri-müntəzəm sərnişin daşımalarında" sözləri əlavə edilsin;

1.3. 3.2-ci bəndə "avtomobilləri ilə" sözlərindən sonra "habelə qeyri-müntəzəm" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 746 (Cild I); 2024, № 1, maddələr 81, 111, 112; 2025, № 3, maddə 282; 2026, № 6, maddə 591; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 29 iyul tarixli 245 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nın 2.1.3-cü yarımbəndində "və ya digər qanuni əsaslarla haqq müqabilində" sözləri "(haqq müqabilində) və ya digər qanuni əsaslarla Qanunun müvafiq olaraq 1.0.4-cü və 1.0.5-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 355 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1436 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın 2.3.7-ci yarımbəndində "və ya digər qanuni əsaslarla haqq müqabilində" sözləri "(haqq müqabilində) və ya digər qanuni əsaslarla "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq olaraq 1.0.4-cü və 1.0.5-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 14 mart tarixli 58 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası və onlar üçün ehtiyat hissələrinin komisyon satışı Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 294** **Bakı şəhəri, 11 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kənd təsərrüfatında güzəştli maliyyələşdirmə barədə bir sıra məsələlərin tənzimlənməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 5 mart tarixli 612 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 14 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 71, (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası və onlar üçün ehtiyat hissələrinin komisyon satışı Qaydaları"nın 4.15-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"4.15. Kənd təsərrüfatı texnikasının alınması üzrə həyata keçirilən ödənişlər barədə məlumatlar və həmin texnikanın təhvil verilməsini təsdiq edən sənədlər (təhvilverənin razılığı ilə) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## *Matteo VİTTUARİ:* "Gənclər iqlim problemlərinin həllinə töhfə verə bilərlər"

**"Qarşılaşdığımız problemlər - iqlim dəyişmələrindən biomüxtəlifliyin itirilməsinə, ərzaq təhlükəsizliyindən təbii ehtiyatlardan dayanıqlı istifadəyə qədər - sizin nəsliniz üçün ciddi nəticələr doğuracaq. Lakin siz yalnız bu problemlərlə üzləşəcək nəsil kimi qəbul edilməməlisiniz. Siz həm də bu problemlərin həllinə töhfə verə biləcək nəsilsiniz".**




AZƏRTAC xəbər verir ki, bunu **ADA Universitetinin Kənd Təsərrüfatı və Qida Elmləri fakültəsinin dekanı, professor Matteo VİTTUARİ** Bakıda "EkoSfera" Ekoloji-Sosial Mərkəz İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən "II LCOY Azərbaycan 2026 - II İqlim Dəyişikliyi üzrə Gənclərin Lokal Konfransı"nda onlayn videomüraciətində deyib.

"ADA Universitetinin Kənd Təsərrüfatı və Qida Elmləri fakültəsində dayanıqlılıq missiyamızın əsasını təşkil edir. Bir neçə il əvvəl Bakıda keçirilmiş COP29-un yaratdığı dinamikanı davam etdirərək, təhsil, tədqiqat, innovasiya və əməkdaşlıq vasitəsilə daha dayanıqlı və iqlimədavamlı gələcəyin formalaşmasına töhfə verməyə sadiqik", - deyə Matteo Vittuari qeyd edib.

Professor vurğulayıb ki, universitetlər yalnız biliklərin istehsal və tədris edildiyi məkanlar olmamalıdır. Onlar biliklərin bölüşüldüyü, sınaqdan keçirildiyi və real problemlərin həll olunduğu məkanlar olmalıdır.

"Bu səbəbdən Birləşmiş Millətlər Təşkilatı da daxil olmaqla beynəlxalq təşkilatlarla, eləcə də yerli şirkətlər, qurumlar, fermerlər və icmalarla əməkdaşlıq edirik. Bu əməkdaşlıqlar elmi bilikləri praktiki təcrübə ilə əlaqələndirməyə və real dəyişiklik yarada biləcək həllər hazırlamağa imkan verir", - deyə o bildirib.

Matteo Vittuari qeyd edib ki, əhəmiyyətli transformasiyaya yalnız institutların səyləri ilə nail olmaq mümkün deyil. Bunun üçün gənclərin enerjisi, yaradıcılığı və tənqidi düşüncəsi tələb olunur: "Təhsil işçiləri kimi bizim məsuliyyətimiz sizə yalnız bilik vermək deyil, həm də bu bilikdən istifadə etmək, mövcud yanaşmaları sorğulamaq, müxtəlif sahələr üzrə əməkdaşlıq etmək və öz ideyalarınızı inkişaf etdirmək üçün sizə imkanlar yaratmaqdır".

Professor gənclərin tədbir çərçivəsində hazırlayacağı təkliflərin yalnız niyyət bəyanatı olaraq qalmamalı olduğunu söyləyib.

"Onlar real təsir yaratmağa qadir layihələrə, tərəfdaşlıqlara, təcrübələrə və təşəbbüslərə çevrilə bilər. Ümid edirəm ki, bu iki gün sizə yeni biliklər, yeni əlaqələr, yeni dostluqlar və hər şeydən əvvəl ideyalarınızı həyata keçirmək üçün özünüzə inam qazandıracaq", - deyə o əlavə edib.

# Müstəqil və çoxtərəfli diplomatiya modeli



**Beynəlxalq münasibətlər sistemi son dərəcə mürəkkəb dövrünü yaşayır. Dünyanın bir çox ölkəsi gərginlik və ziddiyyətlər fonunda fərqli siyasi qütblərlə, aparıcı dövlətlərlə normal əlaqələr qurmaqda ciddi problemlərlə üzləşirlər. Lakin Azərbaycan dünyanın fərqli qütbləri arasında bərabərhüquqlu tərəfdaşlıq modelini uğurla tətbiq edərək, beynəlxalq hüququn aliliyinə və qarşılıqlı hörmətə əsaslanan prinsipial xarici siyasət kursu yürüdür. Məhz bu siyasətin uğurlu icrası ölkəmizi regionun ən etibarlı, dinamik və söz sahibi olan aktorlarından birinə çevirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə praqmatik xarici siyasi kursun yeni müstəviyə qaldırılması Azərbaycanın qlobal güc mərkəzləri, eləcə də müxtəlif coğrafi regionlarla səmərəli əməkdaşlıq qurmasını təmin edib.**

## Fərqli siyasi qütblərlə bərabərhüquqlu tərəfdaşlıq Azərbaycanın praqmatik xarici siyasət kursunun uğurudur

Hüquqi normalara sadiqlik, suverenliyə hörmət və ikili standartlara qarşı qətiyyətli mövqe rəsmi Bakının xarici siyasətinin ana xəttini təşkil edir. Bu yanaşma ölkəmizin dünyanın fərqli coğrafiyalarında yerləşən dövlətlərlə yüksək əlaqələr qurmasını, yaxın əməkdaşlıq etməsini şərtləndirir. Azərbaycanın Qərb istiqamətindəki xarici siyasətində Avropa dövlətləri ilə münasibətlər xüsusi əhəmiyyətə malikdir. Aİ-nin 10-dan çox üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayan ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynayır. Avropa ilə enerji tərəfdaşlığını bu gün keyfiyyətcə tamamilə yeni mərhələyə daşıyan Azərbaycan 10-u Aİ üzvü olmaqla, 12 Avropa dövlətinə təbii qaz ixrac edir. Bu geniş coğrafiya Bakının Avropanın enerji təhlükəsizliyindəki strateji rolunu aydın göstərir. Təbii qazla yanaşı, xam neft və Xəzərdən Avropaya çəkilən "yaşıl enerji" kabeli layihəsi də Azərbaycanı qitənin bərpaolunan enerji keçidində önəmli tərəfdaşa çevirir.

Trans-Atlantik məkanla münasibətlərin dərinləşməsi də bu praqmatik xəttin mühüm tərkib hissəsidir. Son dönəmdə Amerika Birləşmiş Ştatları ilə münasibətlər qarşılıqlı maraqlara, bərabərhüquqlu tərəfdaşlığa və regional təhlükəsizlik prioritetlərinə əsaslanan dinamik inkişaf yolunu keçməkdədir. İki ölkə arasında strateji tərəfdaşlığın əsasını enerji təhlükəsizliyi, terrorizmə qarşı birgə mübarizə, nəqliyyat-logistika marşrutlarının təhlükəsizliyi təşkil edir. Bakı və Vaşinqton arasında qurulan tərəfdaşlıq platforması münasibətlərin institusional müstəvidə dərinləşməsinə imkan yaradır. ABŞ eyni zamanda Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olunmasına və regional iqtisadi inteqrasiyanın sürətlənməsində də dəstəyini davam etdirir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı önəmli rol Vaşinqton tərəfindən ardıcıl dəstəklənir. Müasir mərhələdə bu əməkdaşlıq ənənəvi karbohidrogen resursları ilə yanaşı, bərpaolunan enerji və "yaşıl texnologiya"lara keçid sahəsini də əhatə edir.

Qərb istiqamətində əldə olunan uğurlarla yanaşı, Azərbaycan Şərqin nəhəng iqtisadi və siyasi gücləri ilə də bərabərhüquqlu əlaqələrini sürətlə inkişaf etdirir. Bu baxımdan, Azərbaycan dünyanın aparıcı iqtisadi güclərindən biri olan Çin Xalq Respublikası ilə münasibətlərini yeni mərhələyə qaldıraraq strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Qarşılıqlı hörmət, suverenliyə və ərazi bütövlüyünə dəstək prinsipləri üzərində qurulan bu münasibətlər həm ikitərəfli formatda, həm də beynəlxalq platformalarda uğurla inkişaf edir. Azərbaycan Çinin qlobal "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olmaqla, özünün modern nəqliyyat və logistika infrastrukturu - Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhliz vasitəsilə Çin-Avropa arasında yüklərin daşınmasında etibarlı, təhlükəsiz və səmərəli marşrutu təmin edir. Paralel olaraq, iki ölkə arasında ticarət dövriyyəsi ardıcıl şəkildə genişlənir, Çin şirkətlərinin Azərbaycanda sənaye, bərpaolunan enerji, rəqəmsal texnologiyalar və infrastruktur layihələrində iştirakı dərinləşir. Bu sahələrdə Çinin qabaqcıl təcrübəsindən geniş istifadə olunur. Eyni zamanda Bakı və Pekin BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda səmərəli dialoqu davam etdirərək qlobal təhlükəsizlik və regional sabitliyin bərqərar olunmasında ortaq mövqedən çıxış edirlər. Bu çoxşaxəli tərəfdaşlıq bütövlükdə Avrasiya məkanında dayanıqlı iqtisadi tərəqqiyə xidmət edir.

Şərq-Qərb oxu üzrə qurulan tərəfdaşlıq qonşuluq siyasətində də özünü qabarıq göstərir. Azərbaycan regional təhlükəsizlik və iqtisadi inteqrasiya prinsiplərinə söykənərək Rusiya ilə münasibətlərini müttəfiqlik müstəvisində inkişaf etdirir. İki ölkə arasında tarixi və coğrafi amillərə əsaslanan bu münasibətlər 2022-ci ilin fevralında Moskvada imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı əlaqəsi haqqında Bəyannamə" ilə ən yüksək pilləyə qaldırılıb. İki dövlət arasında ticarət-iqtisadi əlaqələr dinamik şəkildə genişlənir, kənd təsərrüfatı, energetika, sənaye üzrə iri layihələr icra olunur. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi nəqliyyat sahəsində tərəfdaşlığın əsas xəttini təşkil edir.

Ölkəmizin xarici siyasət strategiyasının mühüm istiqamətlərdən biri də Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində dərinləşən inteqrasiya və Mərkəzi Asiya regionu ilə qurulan yüksək münasibətlərdir. Ortaq soykökə söykənən bu əlaqələr hazırda güclü hərbi-siyasi və iqtisadi tərəfdaşlıq müstəvisinə yüksəlib. Azərbaycan Mərkəzi Asiya resurslarının Avropaya nəqlində Orta dəhliz vasitəsilə əsas mərkəz rolunu oynayır. Birgə icra olunan enerji və nəqliyyat layihələri türk dünyasının qlobal çəkisini artırır.

Azərbaycan xarici diplomatiyasını ənənəvi güc mərkəzləri ilə məhdudlaşdırmır. Etni zamanda Yaxın Şərq, Afrika və Latın Amerikası regionları ilə çoxtərəfli münasibətlərini genişləndirir. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvü kimi ərəb-islam dünyası ilə həmrəylik nümayiş etdirən Bakı Afrika və Latın Amerikası dövlətləri ilə diplomatik körpülər salır, onların problemlərinin həllinə fəal dəstək verir. Məhz bu prinsipial mövqe Azərbaycanı qlobal miqyasda daha böyük təşəbbüslərin müəllifinə çevirib.

Dünyada artan gərginlik fonunda Azərbaycan həm də Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşərək fərqli siyasi qütblərin maraqlarını ortaq nöqtəyə gətirməyi bacaran birləşdirici rol oynayır. Qoşulmama Hərəkatına uğurla sədrlik etmiş ölkəmiz bütün tərəflərlə bərabərhüquqlu əlaqələr quraraq, açıq diplomatiya yürüdüb. NATO və Rusiya generallarının, ABŞ və Rusiya rəsmilərinin ən gərgin vaxtlarda belə Bakıda bir araya gəlməsi ölkəmizə etimadın bariz nümayişi idi. Bu etimad Azərbaycanın beynəlxalq miqyasda qərəzsiz və konstruktiv mövqe nümayiş etdirməsi ilə bağlıdır. Bakı müxtəlif sivilizasiyalar və siyasi sistemlər arasında dialoqu təşviq etməklə Avrasiya coğrafiyasında barışdırıcı mərkəz kimi mövqeyini möhkəmləndirir.

Təbii ki, Azərbaycanın çoxvektorlu diplomatiyası, beynəlxalq müstəvidə qazandığı nailiyyətlər Prezident İlham Əliyevin uzaqgörən siyasi kursunun birmənalı nəticəsidir. Qlobal güc mərkəzləri ilə bərabərhüquqlu əlaqələr quran Azərbaycan eyni zamanda milli suverenliyini hər şeydən üstün tutan prinsipial dövlətdir. Azərbaycanın yürütdüyü müstəqil xarici siyasət kursu göstərir ki, güclü dövlət konsepsiyası həm də prinsipial diplomatiya və sarsılmaz siyasi iradə ilə şərtlənir. Tam müstəqil siyasət yürüdən Azərbaycan heç bir kənar gücün diktəsi ilə hərəkət etmir, hər hansı hərbi-siyasi bloklaşmanın tərkib hissəsi olmaqdan uzaqdır. Beynəlxalq hüququn prinsiplərinə və qarşılıqlı hörmətə söykənən əlaqələrin qurulması hər zaman rəsmi Bakının əsas xətti olub. Bu gün "orta güc"ə çevrilən Azərbaycan regional və qlobal miqyasda geostrateji aktor kimi çıxış edir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# İslam həmrəyliyindən beynəlxalq hüquqa, siyasi dəstəkdən strateji tərəfdaşlığa

**İslamın mahiyyətini yalnız dini mənsubiyyət çərçivəsində dəyərləndirmək doğru olmaz. Bu böyük mənəvi ənənənin təməlində haqqı qorumaq, ədalətə söykənmək, insan ləyaqətinə hörmət göstərmək, mərhəmət və barışa üstünlük vermək kimi dəyərlər dayanır. İslam insanları ayrı-seçkiliyə, ədalətə, düşmənçiliyə deyil, sülhə, mənəvi saflığa və qarşılıqlı məsuliyyətə çağırır. Bu baxımdan islam dünyasının həmrəyliyi yalnız dini yaxınlığın ifadəsi yox, haqqın, ədalətin və beynəlxalq hüququn müdafiəsi müstəvisində mühüm məna daşıyır.**



Müasir dünyada bu həmrəyliyin çoxtərəfli ifadə platformalarından biri İslam Əməkdaşlıq Təşkilatıdır (İƏT). Yarım əsrdən çoxdur fəaliyyət göstərən İƏT müsəlman ölkələri arasında siyasi, iqtisadi, mədəni, elmi və humanitar əməkdaşlığın inkişafına xidmət edir. Azərbaycan üçün isə bu təşkilatla münasibət müstəqilliyin ilk illərindən etibarən daha geniş məzmun kəsb edib. Təşkilat ölkəmizin ərazi bütövlüyü və suverenliyi məsələsində beynəlxalq hüquqa əsaslanan mövqeyini dəstəkləyən, Ermənistanın təcavüzünün nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasına imkan yaradan mühüm çoxtərəfli platformalardan biridir.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ilə münasibətlərinin tarixi ölkəmizin dövlət müstəqilliyini bərpa etdiyi ilk illərə gedib çıxır. Ölkəmiz 8 dekabr 1991-ci ildə Dakarda keçirilən İslam Konfransı Təşkilatının dövlət və hökumət başçılarının 5-ci konfransında təşkilata tamhüquqlu üzv qəbul olunub. Bununla Azərbaycan keçmiş sovet respublikaları arasında İKT-yə qoşulan ilk ölkə olub. Həmin dövr Azərbaycan müstəqilliyini yenicə bərpa etmiş, Ermənistanın hərbi təcavüzü genişlənmiş, torpaqlarımız işğala məruz qalmışdı. Ölkənin informasiya və diplomatik imkanları məhdud idi və bu səbəbdən mövqeyimizin beynəlxalq aləmdə tanıdılması mühüm vəzifələrdən birinə çevrilmişdi. Bu baxımdan İƏT üzvlüyü Azərbaycanın islam dünyası ilə tarixi və mədəni bağlarını siyasi əməkdaşlıq müstəvisinə çıxarmaqla yanaşı, Qarabağ məsələsinin beynəlxalq gündəmdə saxlanılması üçün də əhəmiyyətli imkan yaradırdı.

Azərbaycan-İƏT münasibətlərinin sistemli və məqsədyönlü inkişafında Ümummilli Lider Heydər Əliyevin xarici siyasət kursunun xüsusi rolu oldu. 1994-cü ilin mayında Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirinə İKT Baş Katibliyi yanında Daimi Nümayəndə səlahiyyətlərinin verilməsi ölkəmizin təşkilatla əlaqələrinin daha səmərəli və davamlı şəkildə qurulmasına imkan yaratdı. Həmin ilin iyulunda Heydər Əliyevin Səudiyyə Ərəbistanına səfəri, ardınca İKT rəhbərliyi ilə təmasları Azərbaycan-İKT münasibətlərinin siyasi əsaslarını möhkəmləndirdi. 1994-cü ilin dekabrında Kasablankada keçirilən VII Zirvə Konfransında "Ermənistan və Azərbaycan arasında münaqişə haqqında" siyasi qətnamənin qəbul edilməsi də bu diplomatik səylərin mühüm nəticələrindən biri idi. Sonrakı illər Azərbaycan tərəfinin təşəbbüsləri ilə İKT gündəliyinə daha geniş məzmunlu sənədlər daxil edildi. Onların sırasında ölkəmizin iqtisadi ehtiyaclarına yardım göstərilməsi, işğal olunmuş ərazilərdə islam dininə aid tarixi və mədəni irsin, ibadət ocaqlarının dağıdılması və təhqir olunması ilə bağlı qətnamələr xüsusi yer tutur.

Həmin mərhələdə mühüm məqam ondan ibarət idi ki, Azərbaycan öz mövqeyini ikitərəfli görüşlərdə deyil, təşkilatın kollektiv qərar qəbuletmə mexanizmləri vasitəsilə də ifadə edirdi. Bu isə ölkəmizin çoxtərəfli diplomatiyasının imkanlarını genişləndirirdi. Təşkilatın müxtəlif illərdə qəbul etdiyi qətnamələrdə Ermənistanın təcavüzü pislənilmiş, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasına çağırışlar səsləndirilmiş və Azərbaycanın suverenliyi ilə ərazi bütövlüyünə dəstək ifadə olunmuşdur. Bu mövqenin əhəmiyyəti yalnız onun siyasi məzmununda deyil, həm də beynəlxalq təşkilatın kollektiv iradəsini əks etdirməsində idi. İƏT-in 57 üzv dövləti əhatə edən platforma olması Azərbaycanın mövqeyinin geniş dövlətlər qrupunun sənədlərində öz əksini tapmasına imkan verirdi.

2016-cı ilin Aprel hadisələrindən sonra İstanbulda keçirilən 13-cü İslam Zirvə Görüşündə qəbul olunmuş yekun sənəddə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı müddəaların yer alması, habelə "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair İƏT Təmas Qrupu"nun yaradılması siyasi dəstəyin daha konkret mexanizmə çevrildiyini göstərdi. Təmas qrupunun yaradılması təşkilatın məsələni ümumi bəyanatlarla yanaşı, xüsusi siyasi formatda da izləmək niyyətinin ifadəsi idi.

Azərbaycan-İƏT münasibətlərinin mühüm istiqamətlərindən biri də Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılması ilə bağlı əməkdaşlıqdır. 2009-cu ildə başlanmış "Xocalıya Ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası bu istiqamətdə geniş fəaliyyətin əsasını qoydu. 2013-cü ilin fevralında Qahirədə keçirilən İƏT Zirvə Toplantısının Yekun Kommünikesində Xocalı faciəsi ilə bağlı ağır hüquqi qiymətləndirmə ifadə edildi və üzv dövlətlərin bu məsələnin beynəlxalq səviyyədə tanıdılması istiqamətində səylərinin artırılması vurğulandı.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı İƏT-in mövqeyi Azərbaycanın siyasi diplomatiyasında mühüm yer tutdu. Təşkilat həmin ilin iyulunda Ermənistanın Tovuz istiqamətində hücumunu, sentyabr ayında Azərbaycan ərazilərinə qarşı hərbi təxribatları və hücumları pisləyən bəyanatlar yaydı. Təşkilat Gəncənin raket atəşinə tutulması ilə bağlı Azərbaycanla həmrəyliyini ifadə etdi. 16 noyabr 2020-ci il tarixli bəyanat isə döyüşlərin dayandırılmasına və sülhə çağırış mövqeyini əks etdirirdi. Vətən müharibəsindən sonra da İƏT-in mövqeyi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin dəstəklənməsi istiqamətində davam etdi. 2021-ci ilin sentyabrında İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının faktaraşdırıcı missiyasının Azərbaycana səfəri bu baxımdan mühüm hadisə oldu. Missiya Ağdam, Tərtər və Gəncədə araşdırmalar apararaq işğal və hərbi əməliyyatların nəticələri ilə bağlı məlumatlar topladı. 2023-cü ilin sentyabrında isə İƏT İnsan Hüquqları Komissiyasının nümayəndə heyəti Ağdam, Füzuli və Gəncəyə səfər edərək mədəni-dini abidələrin dağıdılması, qəbiristanlıqların vəziyyəti və müharibənin humanitar nəticələri ilə bağlı araşdırmalar apardı. Bu missiyalar siyasi bəyanatlarla yanaşı, faktların yerində öyrənilməsi və hesabat mexanizmlərinin də işə salındığını göstərdi.

İƏT-in 2024-cü il siyasi qətnaməsində Azərbaycanın 2020-ci il müharibəsi və 2023-cü ilin sentyabr hadisələri nəticəsində suveren ərazilərində nəzarəti bərpa etməsi qeyd olunur. Sənəddə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstək bir daha təsdiqlənir, işğalın nəticələrinin aradan qaldırılması və bərpa prosesinə diqqət yetirilir. 2025-ci ilin iyununda İƏT Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasında qəbul olunmuş İstanbul Bəyannaməsində Azərbaycanla Ermənistan arasında sülh prosesində əldə olunan irəliləyişlərə münasibət bildirilib, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə xələl gətirən addımlardan çəkinməyə çağırış edilib. Həmçinin azad edilmiş ərazilərin bərpası, minalardan təmizləmə və məcburi köçkünlərin ləyaqətli qayıdışı ilə bağlı Azərbaycana dəstək ifadə olunub.

Azərbaycanın İƏT daxilindəki fəallığı mədəni-humanitar istiqamətdə də özünü göstərir. 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi, həmin il IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi, İƏT və Qoşulmama Hərəkatına üzv ölkələrin tələbələri üçün təqaüd proqramlarının təsis edilməsi bu siyasətin mühüm nümunələrindəndir. Bu təşəbbüslər islam həmrəyliyinin yalnız siyasi bəyanatlarla deyil, təhsil, idman, gənclər və humanitar əməkdaşlıq vasitəsilə də möhkəmləndirilməsinə xidmət edib.

Azərbaycan-İƏT əlaqələrinin möhkəmliyi yüksəksəviyyəli qarşılıqlı səfərlərdə və görüşlərdə də özünü göstərir. İƏT Baş katiblərinin ölkəmizə səfərləri, Azərbaycan rəhbərliyi ilə görüşləri və təşkilatın müxtəlif tədbirlərində iştirakı münasibətlərin davamlı xarakter daşıdığını göstərir. 2006-cı ildə Bakıda İƏT Xarici İşlər Nazirləri Şurasının 33-cü konfransının keçirilməsi, 2017-2019-cu illərdə İƏT Baş katibi Yusif bin Əhməd Əl-Useyminin Azərbaycana səfərləri və Prezident İlham Əliyevlə görüşləri, 2021-ci ildə Baş katibin ölkəmizə səfəri çərçivəsində ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsinə verilən diqqət bu münasibətlərin yüksək səviyyədə saxlanıldığını göstərən faktlardır. Bu görüşlərdə siyasi məsələlərlə yanaşı, iqtisadi, humanitar, mədəni və institusional əməkdaşlığın inkişafı da müzakirə olunub. Beləliklə, Azərbaycan-İƏT münasibətləri Qarabağ məsələsi ilə məhdudlaşmayan çoxşaxəli əməkdaşlıq formatına çevrilib.

Azərbaycan-İƏT münasibətlərinin tarixi göstərir ki, həmin əlaqələr müstəqilliyin ilk illərində siyasi dəstək və beynəlxalq hüquqa əsaslanan mövqeyin müdafiəsi ilə başlayaraq, zaman keçdikcə çoxtərəfli diplomatiya, humanitar əməkdaşlıq və strateji tərəfdaşlıq məzmunu qazanıb. Bu əməkdaşlıq Azərbaycanın haqq işinə verilən siyasi dəstəyin və islam dünyasının ədalət, suverenlik və beynəlxalq hüquq prinsiplərinə bağlılığının nümunəsidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Qida təhlükəsizliyinin təminatında yeni dövr başlayır

**İnsan sağlamlığının qorunması və əhalinin təhlükəsiz, keyfiyyətli ərzaqla təmin edilməsi dövlət siyasətinin əsas prioritetlərindəndir. Bu gün qida təhlükəsizliyi yalnız məhsulun keyfiyyətinə nəzarətlə məhdudlaşmır. İqlim dəyişmələri, su ehtiyatlarının azalması və torpaqların deqradasiyası məhsulun istehsalından istehlakına qədər müxtəlif mərhələlərdə yeni risklər yaradır.**

Bu baxımdan qida təhlükəsizliyinə yanaşma da dəyişir. Əvvəllər məqsəd təhlükəli məhsulu müəyyən edib dövriyyədən çıxarmaq idi. İndi isə qidanın istehsalından istehlakına qədər təhlükəsizliyini təmin etmək üçün bütün mərhələlərdə davamlı nəzarət tələb olunur. Məhz bu kontekstdə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027-2032-ci illər üçün" dövlət proqramının qəbul edilməsi zamanın tələbidir. Sənəd qarşıdakı dövr üçün qida təhlükəsizliyinə daha sistemli və müasir yanaşmanın əsas istiqamətlərini müəyyənləşdirir. Eləcə də mövcud imkanların daha çox gücləndirilməsini və hər cür təhlükəyə qarşı qabaqlayıcı tədbirlərin görülməsini vacib hesab edir. Qida təhlükəsizliyi daim dəyişən risklərlə üz-üzədir. Qlobal iqlim dəyişmələri kənd təsərrüfatı və ərzaq istehsalı üçün yeni problemlər yaradır. Bu səbəbdən dövlət nəzarətinin elmi və müasir texnologiyalara söykənən mexanizmlərlə təkmilləşdirilməsi zərurətə çevrilir.

Mövzu ilə bağlı fikirlərini bölüşən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "Azexport.az" portalının rəhbəri Ayxan Qədəşov hesab edir ki, qlobal iqlim dəyişikliklərinin yaratdığı yeni risklər, təchizat proseslərinin mürəkkəbləşməsi və xarici bazarlarda keyfiyyət tələblərinin sərtləşməsi fonunda proqramın qəbulu xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, təhlükəsiz və keyfiyyətli qida məhsullarına tələbatın artdığı bir dövrdə sənəd yalnız qida təhlükəsizliyinin təmin olunmasına yönəlməyib. O, həm də yerli istehlakçı və ixracatçı üçün yeni imkanların formalaşmasına xidmət edə bilər: "Qlobal ticarətdə qida təhlükəsizliyi artıq yalnız yerinə yetirilməli olan texniki tələb deyil. Bu amil ölkələrin və şirkətlərin beynəlxalq bazarlardakı rəqabət imkanlarını müəyyənləşdirən mühüm göstəricilərdən birinə çevrilib. Bu baxımdan, dövlət proqramının həyata keçirilməsi Azərbaycanın qida təhlükəsizliyi sisteminin gücləndirilməsi ilə yanaşı, yerli məhsulların xarici bazarlarda etibarlı və rəqabətqabiliyyətli mövqeyinin möhkəmlənməsinə də imkan yaradar".

Dövlət proqramında Azərbaycan məhsullarının xarici bazarlara çıxışının genişləndirilməsi ilə bağlı konkret hədəflər müəyyənləşdirilib. Xüsusilə arıçılıq məhsullarının, o cümlədən balın Avropa İttifaqı ölkələrinə, eləcə də quşçuluq məhsullarının yeni bazarlara ixracına imkan verəcək icazələrin alınması neftdənkənar ixracın coğrafiyasını genişləndirə bilər. Sənəddə müəssisələrin 80 faizində HACCP sisteminin tətbiqi də mühüm hədəflərdən biridir. Məlumat üçün bildirək ki, HACCP təhlükələrin təhlili və kritik nəzarət nöqtələri deməkdir. Sadə dillə desək, bu, qidanın istehsalından istehlakçıya çatana qədər təhlükəsizliyini təmin etmək üçün risklərin əvvəlcədən müəyyənləşdirilməsi və nəzarətdə saxlanılması sistemidir.

Qeyd edək ki, dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə iki yeni qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti məntəqəsinin yaradılması idxal-ixrac əməliyyatlarının sürətləndirilməsinə və logistika imkanlarının genişləndirilməsinə şərait yaradacaq. Ev şəraitində və ailə təsərrüfatlarında hazırlanan məhsulların bazara çıxış mexanizminin yaradılması, həmçinin qanunvericilik prosesinə özəl sektorun cəlb edilməsi isə qida təhlükəsizliyində dövlət-özəl əməkdaşlığının gücləndirilməsinə yönələn addımlardır.

Sərəncamda xüsusi diqqət çəkən istiqamətlərdən biri rəqəmsal texnologiyalar, elektron izləmə və sertifikatlaşdırma sistemlərinin genişləndirilməsidir. Bu yanaşma qida məhsullarının "tarladan süfrəyə" qədər keçdiyi mərhələlərə nəzarətin daha səmərəli qurulmasına imkan verəcək. Məhsulun mənşəyinin, istehsal və emal prosesinin izlənməsi həm risklərin vaxtında müəyyənləşdirilməsinə, həm də təhlükəsizlik tələblərinə əməl olunmasına nəzarəti gücləndirəcək. Ayxan Qədəşov deyir: "Sirr deyil ki, tədarük zəncirinin şəffaflığı beynəlxalq ticarətin onurğa sütunudur. Sənədə əsasən, risklərin və potensial problemlərin təhlili üçün süni intellekt modellərinin tətbiqi, habelə AQTİS daxilində vahid izləmə altsisteminin qurulması, ilkin mərhələdə pilot layihə qismində 50 qida subyektinin bu sistemə qoşulması nəzərdə tutulur. Daha sonra qida məhsullarının saxtalaşdırılmasının qarşısını almaq məqsədilə radiotezlikli identifikasiya (RFID) və əşyaların interneti (IoT) kimi müasir rəqəmsal texnologiyaların tətbiqinin təşviqi məhsulların mənşəyini zəmanət altına alaraq rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıracaq".

Dövlət proqramının əsas istiqamətlərindən biri də istehlakçıların təhlükəsiz qida ilə təmin olunması və sağlam qidalanma vərdişlərinin formalaşdırılmasıdır. Bu məqsədlə xüsusi etiketlənmənin tətbiqi, allergenlər və bioloji aktiv qida məhsullarının dərman vasitəsi olmadığı barədə əhalinin vizual vasitələrlə məlumatlandırılması nəzərdə tutulur. Qida israfının azaldılması ilə bağlı təşviqat kampaniyalarının keçirilməsi də ictimai məlumatlılığın artırılmasına xidmət edəcək.

Sənəddə qanunsuz küçə ticarətinin qarşısının alınması və diyetologiya sahəsində fəaliyyət göstərən mütəxəssislərin qeydiyyata alınaraq fəaliyyətlərinə nəzarətin gücləndirilməsinin vacibliyi ayrıca qeyd olunur. Digər mühüm istiqamət insan, heyvan və ətraf mühit sağlamlığının birlikdə nəzərə alınmasıdır. "Vahid sağlamlıq" yanaşması məhz həmin prinsipə əsaslanır. Bu yanaşma insan və heyvanlar arasında yayıla bilən xəstəliklərin, eləcə də ətraf mühitlə bağlı risklərin vaxtında müəyyənləşdirilməsinə və qarşısının alınmasına imkan verir. Zoonoz xəstəliklərə qarşı milli strategiyaların həyata keçirilməsi, həmçinin yüksək biotəhlükəsizlik standartlarına cavab verən yeni laboratoriya kompleksinin yaradılması ölkənin bioloji risklərə qarşı hazırlığının gücləndirilməsinə imkan verəcək.

2027-2032-ci illəri əhatə edən dövlət proqramı bir tərəfdən ölkənin qlobal qida təhlükəsizliyi ilə bağlı problemlərə daha hazırlıqlı olmasına, digər tərəfdən isə yerli istehsalçıların rəqabət imkanlarının genişlənməsinə şərait yaradılmasını ehtiva edir. Xüsusilə beynəlxalq standartlara uyğunluğun artırılması prinsiplərinin tətbiqi Azərbaycan məhsullarının dünya bazarlarında mövqeyinin möhkəmləndirilməsi üçün yeni imkanlar yaradır. Nəticə etibarilə, dövlət proqramı qarşıdakı illər üçün qida təhlükəsizliyinin daha müasir, rəqəmsal və riskəsaslı modelinin formalaşdırılmasına yönəlmiş mühüm addımdır. Bu modelin uğurlu icrası istehlakçıların təhlükəsiz qida ilə təminatını gücləndirəcək, üstəlik də Azərbaycanın qlobal ərzaq və ticarət sistemində daha fəal mövqe tutmasına imkan verəcək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## "AZƏRBAYCAN" - 108

**Bu gün müstəqilliyimizin özü ilə yaşıd olan "Azərbaycan" qəzetinin səhifələrində bir zamanlar xəyalını qurduğumuz, böyük Zəfərin əks-sədasını görürük. İndi 108 yaşlı "Azərbaycan" qəzetinin hər nömrəsinə zirvələrində üçrəngli, ay-ulduzlu bayrağı dalğalanan, suverenliyi tam bərpa olunmuş bütöv bir ölkənin qüruru həkk olunur. Müstəqilliyin ən çətin illərindən bu günümüzə qədər keçilən mübarizə və qəhrəmanlıqla dolu yolu qələmi ilə addımlayan bu nəşr indi qalib Azərbaycanın Zəfər imzasını tarixə yazır.**

# Zəfər salnaməçisi

### Qələmlə hörülən vətənpərvərlik qalası

70 illik susqunluqdan, məhbus həyatından sonra 1990-cı illərin fırtınalı, ağrılı günlərində yenidən işıq üzü görən "Azərbaycan" qəzeti bu dəfə tamam başqa bir imtahanla üz-üzə qaldı. Bir tərəfdə işğal olunmuş torpaqlar, bir milyondan çox qaçqın və köçkünün göz yaşı, daxili böhranlar... Qəzetin səhifələri o böhranlı illərdə bir xalqın fəryadını, sızlayan yarasını tarixə yazırdı. Amma xoşbəxtlikdən, elə həmin səhifələr Ulu Öndər Heydər Əliyevin qurtuluş həmləsi ilə qaranlıqdan işığa çıxan Azərbaycanın dirçəliş salnaməsinə də çevrilməyi bacardı. Ulu Öndərin "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir" ideyasını özünə yol xəritəsi seçən qəzet ölkəmizin daxili böhranlardan qurtuluşa və Zəfərə qədər olan bütün mərhələlərini dəqiqliklə tarixiləşdirdi.

Ərazilərimizin işğal altında olduğu, yüz minlərlə soydaşımızın yurd həsrəti ilə yaşadığı o çətin illərdə qəzetin üzərinə çox böyük və məsuliyyətli bir missiya düşürdü. Qarabağın və Şərqi Zəngəzurun işğal altında olduğu illərdə böyüyən yeni nəsildə Vətən sevgisini, torpaq təəssübkeşliyini sarsılmaz etmək. Qəzetin hər nömrəsində dərc olunan analitik yazılar, tarixi araşdırmalar və insan taleyindən bəhs edən publisistik məqalələr oxucuya müstəqilliyimizin yalnız ərazi bütövlüyümüz tam təmin olunduqdan sonra öz əsl mahiyyətini tapacağını aşılayırdı.

Bu illər ərzində nəşrin səhifələrində Birinci Qarabağ müharibəsi zamanı az qala əliyalın şəkildə düşmənin top-tüfənginə qarşı cəsarətlə sinə gərən vətən övladlarının qəhrəmanlıqlarından bəhs edən yüzlərlə silsilə yazı yer aldı. Milli atributlarımızın, dövlətçilik ənənələrimizin və hərb tariximizin təbliğinə geniş yer ayıran "Azərbaycan" qəzeti milli ideologiyanın formalaşmasında, cəmiyyətin vahid qayə ətrafında sıx birləşməsində özünəməxsus rol oynadı.

Hələ Böyük qayıdışın xəyallarda olduğu vaxtlarda qəzet əməkdaşları işğal altındakı rayonlarımızın zəngin mədəni irsini, tarixini, darmadağın edilmiş kənd və şəhərlərimizin həqiqətlərini davamlı olaraq gündəmdə saxladılar.

Bir sözlə, "Azərbaycan" qəzeti öz vətənpərvərlik yazıları ilə cəmiyyəti ruhən və mənən o müqəddəs ana - Vətən torpaqlarının azad ediləcəyi, Azərbaycanın bütöv olacağı günə hazırlayırdı.




### Qələmdən süngüyə, sözdən Zəfərə

Və o gün 2020-ci il sentyabrın 27-də gəlib çatdı...

İkinci Qarabağ savaşında "Azərbaycan" qəzetinin hər bir əməkdaşı, sözün həqiqi mənasında, qələmini süngüyə çevirdi. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin "Qarabağ Azərbaycandır!" hayqırtısı və cəbhədən verdiyi müjdələr qəzetin hər sayında böyük coşqu ilə işıqlandırıldı. Jurnalistlərimiz təkcə xoş xəbərləri yazmadılar, düşmənin cəbhədən kilometrlərlə uzaqda yerləşən yaşayış məntəqələrimizi raket atəşinə tutaraq müharibə cinayətləri törətməsini də dünyaya çatdırdılar.

Bundan əlavə, qəzet xalqın döyüş ruhunu, arxa cəbhədəki həmrəyliyini və əsgərlərimizin igidliyini əks etdirən analitik yazılar, oçerklər və müsahibələr də dərc edirdi. "Azərbaycan" qəzeti İkinci Qarabağ müharibəsi dövründə tarixi hadisələrin canlı salnaməsini yaradaraq, Zəfər yolunun mühüm informasiya dəstəkçilərindən birinə çevrilmişdi.

Vətən müharibəsi günlərində qəzetin baş redaktoru Bəxtiyar Sadıqovun "Üç cəbhənin sərkərdəsi" yazısında Qələbəyə sarsılmaz inam öz əksini belə tapıb: "Biz hamımız bu müharibədən qələbə gözləyirik!

Biz hamımız bu müharibədə Ali Baş Komandan İlham Əliyevə güvənir və əminik ki, həsrətlə gözlədiyimiz qələbəyə bizi məhz böyük rəhbərimiz çatdıracaq!

Biz hamımız İlham Əliyevi indi daha böyük coşqu və məhəbbətlə sevir və bir xalq olaraq ətrafında yumruq kimi birləşmişik!

İlham Əliyev bu günlərdə dayanmadan, durmadan, istirahət etmədən üç cəbhənin hamısında böyük əzm və uğurla çalışır, əsl sərkərdə, müdrik rəhbər, uzaqgörən dövlət başçısı kimi xalqın etimad və etibarını ən yüksək səviyyədə doğruldur!

Yaşa Ali Baş Komandanımız!

Tarix bu xidmətlərinizi heç zaman unutmayacaq!

QƏLƏBƏ BİZİMLƏDİR!

QARABAĞ BİZİMDİR!"

Qəzetin əməkdaşları İradə Əliyevanın, Flora Sadıqlının, Rəşad Cəfərlinin, Rəhman Salmanlının, Rüstəm Kamalın, Zöhrə Fərəcovanın, mərhum əməkdaşımız Rəşad Baxşəliyevin... "Azərbaycan Ordusu tarixi və müqəddəs missiyasını şərəflə yerinə yetirir", "Düşmən ordusu qorxu və səksəkə içində qaçır", "İşğalçı Ermənistan vandalizminə görə cavab verəcək", "Tarixin alqışladığı qələbə", "İlham Əliyev Xudafərinə də azadlıq bəxş etdi", "Qələbə rəmzi", "Biz qisasımızı döyüş meydanında alırıq"... adlı yazılar və digər qələmə alınan çoxsaylı məqalələr İkinci Qarabağ savaşını bütün gerçəklikləri ilə oxucuya çatdırdı.

"Sentyabrın 27-dən başlanan ikinci Qarabağ müharibəsində Azərbaycan Ordusu işğal olunmuş rayonlarımızı bir-birinin ardınca azad etməklə, müstəqillik tariximizin ən şərəfli səhifəsini yazır", - fikirləri "Azərbaycan Ordusu tarixi və müqəddəs missiyasını şərəflə yerinə yetirir" adlı məqalədə qürurla vurğulanır.

"Tarixin alqışladığı qələbə" başlıqlı yazıda əksini tapan "Deyirlər, xoşbəxtlik sadəcə andır. Amma saatlarla, günlərlə, illərlə sürən xoşbəxtlik də varmış. Prezident İlham Əliyevin noyabrın 8-də Şuşanın azad edilməsi xəbərini xalqa elan edərək həyatımıza gətirdiyi qürur, sevinc bütün tarixə dolan fəxarət hissidir, ömrümüzü bəzəyən, dövlətimiz var olduqca bizimlə birgə əbədi olacaq xoşbəxtlikdir" sözləri xalqımızın yaşadığı sevinc hisslərinin sözlə ifadəsidir.

"Milli ləyaqət simvolu olan üçrəngli Azərbaycan bayrağı bu gün müzəffər ordumuzun rəşadəti sayəsində ölkəmizin işğaldan azad edilən hər bir kəndində, hər bir şəhərində ucadan uca zirvələrdə əzəmətlə dalğalanır. Bu, Azərbaycanın təəssübünü çəkən insanlar üçün, habelə Yer üzündə yaşayan bütün azərbaycanlılar, xüsusilə işğaldan azad edilən ərazilərin sakinləri üçün nə qədər qürurvericidir", - deyə "Qələbə rəmzi" adlı yazıda Zəfər qüruru paylaşılır...

### Qızıl səhifələr

"Azərbaycan" qəzetində işıq üzü görən bütün bu məqalələr yüz illər sonra da öyrəniləcək Zəfər salnaməsinin qızıl səhifələridir. Qəzetdə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidliyə ucalan vətən övladlarının həyatına, Qarabağ zəfərinin qazanılması üçün misilsiz xidmətlər göstərən qəhrəman oğullarımızın şücaətinə, bir qərinəlik həsrətdən sonra yurduna dönən insanlarımızın qayıdış sevincinə həsr olunmuş yüzlərlə yazı qələmə alınıb və bu gün də bu səpkili yazılar nəşrin ana xəttini təşkil edir.

Qəzetdə müxtəlif rubrikalar altında vətənpərvərliklə bağlı məqalələr yer alır. "Zəfər zirvəsini fəth edənlər", "Biz qayıtdıq, Vətən!", "Qarabağ söhbətləri", "Şəhidlər ölməz, vətən bölünməz", "Vətən deyəndə", "Tarix yazan oğullar", "Biz daha köçkün deyilik", "Vətən oldu oğullar!", "Ölməzliyə qovuşanlar", "Yurdu yaşadan qəhrəmanlar", "Vətən üçün doğulanlar" adlı rubrikalarda qəzetin əməkdaşları Züleyxa Əliyevanın "Qısa ömür, əbədi tale", Vahid Məhərrəmovun "Yaralansa da, silahını yerə qoymadı", Elşən Qəniyevin "Bir zabitin Vətən andı", Əsmər Qardaşxanovanın "Qarabağın meşələri bərpa olunur", Ülkər Xaspoladovanın "Ağdamın yeni həyatı Böyük qayıdışla canlanır", Təhminə Verdiyevanın "Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri davam edir", özümün qələmə aldığım "Bizim əbədi Laçın"... kimi yazılar bu qəbildəndir.

"Qısa ömür, əbədi tale" başlıqlı məqalədə müqəddəs şəhidlik məqamının qüssəqarışıq qüruru ən incə məqamına qədər əks olunub: "Hər şəhid evinə gedəndə insan ürəyində qəribə bir ağırlıq daşıyır. Qapını döyməzdən əvvəl nəfəsini toparlamalı olursan. Çünki bilirsən ki, içəridə zaman bir yerdə dayanıb. Saatlar işləsə də, divarlar ötüb keçən günün səsini saxlayır. Bu dəfə də elə oldu. Qapı açıldı və mən bir ömrün xatirəsinə doğru addımladım. Elə bir mənzilə daxil oldum ki, burada qüssəli xatirələr yaşayır…"

"Ağdamın yeni həyatı Böyük qayıdışla canlanır" adlı yazıda vurğulanır ki, Ağdamın taleyində yeni səhifə 2020-ci ilin noyabrında açıldı: "Azərbaycan Ordusunun döyüş meydanında qazandığı Qələbənin nəticəsi olaraq rayonun işğal altında qalan hissəsi Azərbaycana qaytarıldı. Bundan dərhal sonra rayon ərazisinin minalardan təmizlənməsinə, infrastrukturun yaradılmasına və şəhərin gələcək inkişaf modelinin hazırlanmasına başlanıldı. 2021-ci il mayın 28-də Prezident İlham Əliyevin iştirakı ilə Ağdam şəhərinin bərpasının təməli qoyuldu"...

"Azərbaycan" qəzetinin əməkdaşı olmuş şəhid Elgün İsmayılovun xatirəsi artıq 20 ildən çoxdur ki, çalışdığı qəzetin redaksiyasında böyük ehtiramla yad edilir, xatirəsinə həsr olunan yaradıcılıq müsabiqəsi təşkil olunur. Belə ki, hər il Elgünün doğum günündə redaksiya kollektivinin onun xatirəsinə həsr etdiyi tədbir İkinci Şəhidlər xiyabanındakı məzarını ziyarətlə başlayır. Tədbirdə "Azərbaycan" qəzetində ənənəvi vətənpərvərlik mövzusuna həsr olunmuş yaradıcılıq müsabiqəsinə yekun vurulur və qaliblər mükafatlandırılırlar.

108 il əvvəl istiqlalımızın carçısı kimi işıq üzü görən "Azərbaycan" qəzetinin keçdiyi yol həm də müasir dövlətçilik tariximizin canlı güzgüsüdür. Ən çətin illərin ağrı-acısını öz səhifələrində daşıyan, hər nömrəsində mübarizə ruhunu, inamı və vətən sevgisini yaşadan bu qəzet öz tarixi missiyasını həmişə şərəflə yerinə yetirib.

Dünənə qədər torpaq həsrətimizi, qəlbimizdəki nisgili kağıza köçürən qələmlər, bu gün eyni qürurla Böyük qayıdışı, dirçələn şəhər və kəndlərimizin yeni həyatını, xalqımızın Qələbə coşqusunu yazır.

108 illik zəngin ənənəsi olan "Azərbaycan" qəzeti bundan sonra da müstəqil dövlətimizin rəmzi, qalib xalqımızın gələcək nəsillərə ötürüləcək ən etibarlı, ən dəyərli Zəfər salnaməsi, qiymətli məxəz kimi yaşayacaq, var olacaq!

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Təxribat törətdilər, layiqli cavablarını aldılar

## 2022-ci ilin sentyabr döyüşləri erməni revanşistlərinin növbəti çöküşü oldu



**27 sentyabr 2020-ci il Azərbaycan xalqının erməni işğalçıları üzərində zəfərinin başladığı gündür. Həmin gün Ermənistanın 30 ilə yaxın davam edən işğalına son qoymaq üçün xalqımız Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və düşmənə qarşı döyüşən Azərbaycan Ordusunun ətrafında yumruq kimi birləşdi.**



44 gün davam edən İkinci Qarabağ müharibəsi Ermənistanın məğlubiyyəti ilə başa çatdı. Qazanılan Zəfər nəticəsində torpaqlarımızın xeyli hissəsi işğalçılardan azad olundu. Uzun illərdən sonra xalqımız Zəfər sevinci yaşadı. Müharibədə məğlub olmuş, silahlı qüvvələri məhv edilmiş Ermənistan 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanata imza atmağa məcbur oldu. Rəsmi İrəvan bu bəyanata imza atanda məğlubiyyətini etiraf etməklə yanaşı, həm də üzərinə öhdəliklər götürdü.

Həmişə üzərinə götürdüyü beynəlxalq öhdəlikləri pozan Ermənistan bu dəfə də ənənəsinə sadiq qalaraq Azərbaycanla sərhəddə təxribatlar törətməyə başladı. 2020-ci ildə düçar olduğu acı məğlubiyyətindən sonra yenidən güc göstərmək istədi. Ermənistan silahlı quldurlarının tör-töküntüləri 2022-ci il avqustun sonlarından başlayaraq hər gün mövqelərimizi atəşə tuturdular. Amma heç nəyə nail ola bilmirdilər. Azərbaycan Ordusunun döyüşçüləri tərəfindən burunları ovulandan sonra geri çəkilirdilər.

2022-ci il sentyabrın 12-si gecə saatlarında Ermənistan silahlı qüvvələri ordumuzun yerləşdiyi mövqelərə hücuma keçdilər. Düşmən itirdikləri mövqeləri geri qaytarmaq üçün həmin gün Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətdi. İşğalçıların xüsusi hazırlanmış diversiya qrupları gecənin qaranlıq vaxtında ərazinin dağlıq relyefindən istifadə edərək müxtəlif istiqamətlərdə bölmələrimizin mövqeləri arasındakı əraziləri və təminat yollarını minalamaq istəyirdi. Təbii ki, onların bu təxribatçı əməli cavabsız qala bilməzdi.

Ermənistan cəbhə xəttində bu təxribat əməlini törətməklə beynəlxalq havadarlarını münaqişəyə cəlb etməyə, hiyləgərlik edərək məğlub durumu öz xeyrinə dəyişməyə çalışırdı. Güman edirdi ki, həm beynəlxalq birliyi, həm də Kollektiv Təhlükəsizlik üzrə Müqavilə Təşkilatını bu prosesə cəlb edə biləcək. Amma unutdu ki, Azərbaycan Ordusunun qarşısında dayana bilməz. Odur ki, işğalçılar bu əməliyyatda məğlub olmağa məhkum idilər. Çünki müharibədən Zəfərlə çıxmış güclü, qüdrətli Azərbaycan Ordusu ilə bacarmaq onların işi deyildi. Düşmənin ərazilərimizə qarşı olan təxribatının qarşısının qısa müddət ərzində alınması üçün ordumuz bu dəfə də bütün zəruri tədbirləri gördü. 7 saat davam edən döyüşdə təxribatçı qüvvələr darmadağın olundu.

Laçın, Kəlbəcər və Daşkəsən istiqamətində təxtibat törətmək cəhdi düşmənə çox baha başa gəldi. İşğalçıların xeyli sayda döyüş texnikaları, raketləri məhv edildi. Düşmənin 400-ə yaxın canlı qüvvəsi öldürüldü, 300-dən çox hərbçisi yaralandı, düşmənin nəzarətində olan 53 döyüş və 2 minaatan atəş mövqeyi, böyük strateji əhəmiyyətə malik 8 yüksəklik nəzarətə götürüldü. Bundan başqa, Zod istiqamətində yerləşən 538-ci əlahiddə dağatıcı briqadasının daimi dislokasiya məntəqəsi, 2 ədəd S-300 və 2 ədəd S-125 divizionlarının start mövqeləri darmadağın edildi.

Təəssüf ki, təxribatın qarşısı alınarkən bizim də itkilərimiz oldu, 80-ə yaxın əsgər və zabitimiz ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksəldi. Düşmən təxribatının qarşısının alınması əməliyyatında yaralanmış əsgər İlknur Əliyev deyir ki, sentyabrın 12-də mövqelərimizdə dayanmışdıq: "Gecə saatlarında həyəcan siqnalı verildi, bildirildi ki, Ermənistan silahlı qüvvələrinin bölmələri təxribatlara əl atıb. Biz əks-hücuma keçib qarşı tərəfə lazımi cavab verdik. Gücümüzü, qüdrətimizi erməni işğalçılarına növbəti dəfə göstərdik. Sayıqlığımız sayəsində qısa müddət ərzində düşmən təxribatının qarşısını aldıq".

Erməni işğalçıları mövqelərimiz ətrafında təxribat törədəndə Tələt Nəsirov da hərbi xidmətdə idi. O, ordumuzun Kəlbəcərin Zod kəndi istiqamətində düşmən təxribatının qarşısı alınarkən yaralanmışdır. Həmin günləri xatırlayan T.Nəsirov: "Sentyabrın 12-si gecə ermənilərin təxribatlarının qarşısını almaq üçün həyəcan siqnalı verildi. Döyüş yoldaşlarımızla birlikdə mövqelərimizdə möhkəmlənib onlara layiqli cavab verdik. Dəqiq atəş zərbələri ilə erməniləri geri oturtduq. Düşmən gördü və bildi ki, Azərbaycan Ordusu onların istənilən təxribatının qarşısını almağa qadir və hazırdır. Çünki ordumuzun sıralarında bir-birindən cəsur, igid oğullar xidmət edir".

Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxışı zamanı sentyabr döyüşlərindən danışarkən demişdir: "13-14 sentyabr əməliyyatından sonra Azərbaycan-Ermənistan sərhədi istiqamətində əsas strateji yüksəkliklərdə Azərbaycan Silahlı Qüvvələri yerləşib. Ermənistan gözəl anlamalıdır bu, nə deməkdir. Bu gün həmin strateji yüksəkliklərdən Qarakilsə, Qafan, Gorus, İstisu şəhərlərini biz gözlərimizlə görürük. Biz Bala Göyçə gölünün sahilindəyik. Böyük Göyçə gölü də gözümüzün önündədir. Bütün bunlar reallıqlardır. Bu reallıqları biz yaratmışıq, Vətən müharibəsindən sonra. Nə üçün? İlk növbədə, Ermənistanın hərbi təxribatlarına cavab olaraq, digər tərəfdən, özümüzü gələcək hərbi təxribatlardan sığortalamaq üçün. Çünki dediyim yüksəkliklərdən Ermənistanın əksər postları görünür və əgər orada qüvvələrin konsentrasiyası baş verərsə, biz bunu görüb dərhal tədbir görəcəyik. Eyni zamanda ona görə ki, Ermənistan öz beynəlxalq öhdəliklərini yerinə yetirmir. Ermənistan İkinci Qarabağ müharibəsində məğlub olub, ordusu darmadağın edilib. Məğlub edilmiş ölkə özünü belə apara bilməz. Ona görə bizim bütün addımlarımız əsaslıdır. Düzdür, Ermənistanın bəzi xarici havadarları bizi nədəsə günahlandırmaq istəyirlər. Onların cavabını da mən vermişəm. Yenə də nəsə banlasalar, yenə də cavablarını verərəm. Bu, məni dayandırmaz. Amma fakt odur ki, biz öz haqqımızı tələb edirik və Azərbaycanın haqlı olması böyük beynəlxalq aktorlar tərəfindən sual altına qoyulmur".

Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həm 44 günlük Vətən müharibəsində, həm də ondan sonrakı antiterror əməliyyatlarında torpaqlarımızın işğalına son qoydu. Zabit və əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və qəhrəmanlıqlar göstərdilər. Sözün həqiqi mənasında, heç vaxt unudulmayacaq, daim qürurla xatırlanacaq bir tarix yazdılar.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Rəqabətin inkişafına və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair 2027–2029-cu illər üzrə Milli Fəaliyyət Planı

## 1. Qısa xülasə

"Rəqabətin inkişafına və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair 2027-2029-cu illər üzrə Milli Fəaliyyət Planı" (bundan sonra - Milli Fəaliyyət Planı) qlobal iqtisadi münasibətlərin sürətlə dəyişdiyi şəraitdə biznes və investisiya imkanlarının genişləndirilməsi, eləcə də milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi prioritetləri nəzərə alınmaqla hazırlanmışdır.

Milli Fəaliyyət Planı iqtisadiyyatda sağlam rəqabət prinsiplərinin təşviqinə, bazar münasibətlərinin səmərəliliyinin yüksəldilməsinə, eləcə də bu sahədə mövcud institusional və təşkilati çərçivənin təkmilləşdirilməsinə yönəlmişdir. Planda ayrı-ayrı məhsul bazarlarında rəqabət mühitinin öyrənilməsi, tənzimləmə alətlərinin təkmilləşdirilməsi, aidiyyəti dövlət orqanları (qurumları) arasında səmərəli əlaqələndirmənin təmin olunması və müvafiq institusional potensialın artırılması əsas istiqamətlər kimi müəyyən edilmişdir.

Milli Fəaliyyət Planının icrası çərçivəsində sahibkarlığın inkişafı, bütün bazar iştirakçıları üçün bərabər və əlverişli şəraitin yaradılması, özəl sektorun iqtisadi proseslərdə rolunun artırılması, dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi, habelə rəqabət sahəsində elmi-analitik bazanın gücləndirilməsi üzrə tədbirlər həyata keçiriləcəkdir.

Milli Fəaliyyət Planının həyata keçirilməsi ölkədə rəqabətli bazar münasibətlərinin inkişafına, sahibkarlıq və investisiya fəallığının yüksəldilməsinə, innovativ biznes təşəbbüslərinin təşviqinə, iqtisadi subyektlərin rəqabətqabiliyyətliliyinin artırılmasına və dayanıqlı iqtisadi artımın dəstəklənməsinə xidmət edəcəkdir.

## 2. Qlobal trendlər

Müasir dövrdə rəqabət siyasəti dayanıqlı iqtisadi artımın, sahibkarlıq və investisiya fəallığının, innovasiyaların və məhsuldarlığın artırılmasının mühüm vasitələrindən birinə çevrilmişdir. Bu baxımdan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin, o cümlədən Avropa İttifaqına (bundan sonra - Aİ), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (bundan sonra - İƏİT) və Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin, habelə Ümumdünya Ticarət Təşkilatı və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı kimi beynəlxalq təşkilatların əlverişli rəqabət mühitinin formalaşdırılması sahəsində təcrübəsi xüsusi aktuallıq daşıyır.

İƏİT ölkələrində bazarların diaqnostikasına və dövlət tənzimlənməsinin rəqabətə mümkün təsirinin əvvəlcədən qiymətləndirilməsinə əsaslanan qabaqlayıcı ("ex ante") tədbirlərə üstünlük verilir. Bu yanaşma mövcud və yeni tənzimləmələrin bazar iştirakçılarının sayına, fəaliyyət imkanlarına, rəqabət motivasiyasına və istehlakçı seçiminə təsirinin sistemli təhlilini nəzərdə tutur.

Aİ, ABŞ və Böyük Britaniyanın təcrübəsində rəqəmsal platformaların fəaliyyəti, məlumatlara çıxış, qiymətqoyma alqoritmləri və süni intellektin bazar rəqabətinə təsiri xüsusi diqqət mərkəzindədir. Aİ-nin "Rəqəmsal Bazarlar Aktı" əsas rəqəmsal platformalar üçün konkret tələblər müəyyən etməklə bazar iştirakçıları üçün bərabər fəaliyyət imkanlarının yaradılmasına və innovativ şirkətlərin bazara çıxışının asanlaşdırılmasına yönəlmişdir. ABŞ və Böyük Britaniyada isə qiymətqoyma alqoritmlərinin və süni intellekt sistemlərinin bazar münasibətlərinə təsiri üzrə araşdırmalar genişləndirilir.

Rəqabət siyasətinin əhatə dairəsinin genişləndiyi digər istiqamət "yaşıl iqtisadiyyat"a keçidlə bağlıdır. Almaniya, Fransa, Niderland və digər Aİ ölkələrində ekoloji tələblərlə rəqabət prinsiplərinin uzlaşdırılmasına, müəssisələrin "yaşıl texnologiyalar"a keçidinə və ekoloji innovasiyaların təşviqinə diqqət artırılır.

Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistanda məhsul bazarlarının diaqnostikası, iqtisadi təmərküzləşmələrin və dövlət satınalmalarında rəqabət səviyyəsinin qiymətləndirilməsi, eləcə də rəqabət orqanlarının analitik potensialının artırılması istiqamətində tədbirlər həyata keçirilir. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın iştirakı ilə yaradılmış Türk Dövlətləri Rəqabət Şurası isə üzv ölkələrin rəqabət orqanları arasında məlumat və təcrübə mübadiləsinə, institusional əlaqələrin inkişafına və birgə təşəbbüslərin həyata keçirilməsinə xidmət edən regional əməkdaşlıq platformasıdır.

Beləliklə, qabaqlayıcı qiymətləndirmə, rəqəmsal bazarların tənzimlənməsi, süni intellekt və məlumat əsaslı təhlil, dövlət satınalmalarında rəqabətin təşviqi, "yaşıl iqtisadiyyat"a keçid və regional əməkdaşlıq müasir rəqabət siyasətinin əsas qlobal istiqamətlərini təşkil edir.

## 3. Mövcud vəziyyətin təhlili

Azərbaycan Respublikasında rəqabət mühitinin davamlı inkişafı və qorunması iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 15-ci maddəsinin ikinci hissəsinə əsasən, dövlət bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Ölkədə rəqabət siyasətinin hüquqi əsasları müstəqilliyin ilk illərindən formalaşdırılmağa başlanmışdır. Bu çərçivədə 1993-cü ildə "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə bazar iqtisadiyyatına keçid, azad sahibkarlığın təşviqi, istehlakçıların mənafelərinin qorunması və bazar münasibətlərinin hüquqi tənzimlənməsi sistemli xarakter almış, 1995-ci ildə "Haqsız rəqabət haqqında", 1998-ci ildə isə "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir.

2003-cü ildən başlayaraq rəqabət siyasəti iqtisadiyyatın şaxələndirilməsi, özəl sektorun inkişafı və investisiya mühitinin yaxşılaşdırılması prioritetlərinə uyğun olaraq yeni mərhələyə keçmişdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi", 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" rəqabətqabiliyyətli iqtisadiyyatın və əlverişli biznes mühitinin inkişafı üçün strateji çərçivə yaratmışdır.

Həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində 2003-2024-cü illərdə ümumi daxili məhsul real ifadədə 3,8 dəfə, sənaye istehsalı 2,7 dəfə, əhalinin nominal gəlirləri isə 14,5 dəfədən çox artmışdır. Yoxsulluq səviyyəsi 44,7 faizdən 5,3 faizədək azalmış, ölkənin strateji valyuta ehtiyatları 71 milyard ABŞ dollarına çatmışdır. Əldə edilmiş nəticələr makroiqtisadi sabitliyin möhkəmlənməsi, sahibkarlığın inkişafı və özəl investisiyaların genişləndirilməsi üçün əlverişli zəmin formalaşdırmışdır.

Son illərdə rəqabət siyasətinin hüquqi bazasının müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. "Dövlət satınalmaları haqqında" 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Azərbaycan Respublikası Qanununun qəbulu dövlət vəsaitlərindən səmərəli istifadə, satınalma proseslərinin rəqəmsallaşdırılması, şəffaflığın və sahibkarların iştirak imkanlarının artırılması üçün yeni hüquqi əsas yaratmışdır.

Antiinhisar fəaliyyəti və haqsız rəqabət sahəsində qanunvericilik sistemləşdirilərək və yeni tənzimləmə institutları müəyyən edilərək 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanunla Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi qəbul edilmişdir. Məcəllə sağlam rəqabət prinsiplərinin qorunması, müvafiq məhsul bazarlarının müəyyənləşdirilməsi, sazişlərin və iqtisadi təmərküzləşmələrin rəqabətə təsirinin qiymətləndirilməsi, təbii inhisar sahələrinin tənzimlənməsi və rəqabət qanunvericiliyinə əməl olunmasına nəzarət üzrə müasir hüquqi çərçivə formalaşdırmışdır. Məcəllənin tətbiqinin təmin edilməsi məqsədilə müvafiq istiqamətlər üzrə normativ hüquqi baza təkmilləşdirilmişdir.

Rəqabət siyasətinin institusional əsasları da gücləndirilmiş, bu sahədə dövlət siyasətinin və tənzimləmənin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi, məhsul bazarlarının sistemli təhlili və müasir nəzarət vasitələrinin tətbiqi üçün müvafiq idarəetmə çərçivəsi formalaşdırılmışdır.

Rəqabət siyasətinin inkişafının növbəti mərhələsində rəqabətli neytrallıq prinsiplərinin tətbiqinin genişləndirilməsi, sahibkarların mühüm infrastruktura və resurslara çıxış imkanlarının artırılması, məhsul bazarlarında rəqabət səviyyəsinin müntəzəm qiymətləndirilməsi, dövlət satınalmalarında iştirak dairəsinin genişləndirilməsi, rəqabət mədəniyyətinin təşviqi, eləcə də elmi və məlumat əsaslı təhlil imkanlarının gücləndirilməsi prioritet istiqamətlər kimi çıxış edir.

## 4. Milli Fəaliyyət Planının hədəf göstəriciləri

4.1. Milli Fəaliyyət Planının icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1.prioritet məhsul bazarlarında rəqabət mühitinin diaqnostikası əsasında bazar iştirakçılarının fəaliyyət imkanlarının genişləndirilməsi və rəqabət səviyyəsinin yüksəldilməsi;

4.1.2.dövlət müəssisələri tərəfindən müxtəlif bazarlarda rəqabət neytrallığının qorunması mexanizminin inkişaf etdirilməsi;

4.1.3.bazar prinsiplərinin tətbiqi potensialı olan xidmətlərin qiymətləndirilməsi və seçilmiş sahələr üzrə müvafiq keçid tədbirlərinin həyata keçirilməsi;

4.1.4.ölkə və regionlar üzrə rəqabətin inkişaf səviyyəsini ölçən indikatorlar sisteminin yaradılması, rəqabət xəritəsinin hazırlanması və dövri yenilənməsinin təmin edilməsi;

4.1.5.bazar iştirakçılarında və istehlakçılarda rəqabət savadlılığının və mədəniyyətinin artırılması;

4.1.6.bazarda rəqabət vəziyyətinin diaqnostikası üzrə təkmil metodologiyanın hazırlanması və tətbiqi;

4.1.7.rəqabət sahəsində tədqiqat fəaliyyətinin əlaqələndirilməsi mexanizminin yaradılması, habelə tədqiqatların sayının davamlı artırılması;

4.1.8.ali təhsil müəssisələrinin müvafiq ixtisaslar üzrə təhsil proqramlarına rəqabət iqtisadiyyatı və rəqabət hüququ mövzularının daxil edilməsi;

4.1.9.aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiya mexanizminin formalaşdırılması və inkişaf etdirilməsi;

4.1.10. rəqabət sahəsində çalışan əməkdaşların peşə hazırlığı səviyyəsinin yüksəldilməsi;

4.1.11. xarici rəqabət orqanları və beynəlxalq təşkilatlarla həyata keçirilən birgə layihələrin, tədqiqatların və təcrübə mübadiləsi proqramlarının sayının artırılması.

## 5. Milli Fəaliyyət Planının məqsədləri

5.1. Milli Fəaliyyət Planının əsas məqsədi əmtəə və xidmət bazarlarında rəqabət mühitini yaxşılaşdırmaqla ölkə iqtisadiyyatına özəl investisiya qoyuluşu artımının stimullaşdırılmasına, eləcə də dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi artıma nail olmaqdır. Bununla yanaşı, Milli Fəaliyyət Planı aşağıdakı alt məqsədlərə nail olmaq üçün hazırlanmışdır:

5.1.1. milli iqtisadiyyatda sağlam rəqabət prinsiplərinin tətbiqinin genişləndirilməsi;

5.1.2. bazar iştirakçılarının və istehlakçıların rəqabət prinsipləri və qanunvericiliyi üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi;

5.1.3. rəqabət siyasəti üzrə qərarların elmi tədqiqatlara, iqtisadi təhlillərə və məlumatlara əsaslanmasının gücləndirilməsi;

5.1.4. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin səmərəliliyinin artırılması.

## 6. Milli Fəaliyyət Planının prioritet istiqamətləri

6.1. Rəqabətin inkişafı və inhisarçılığın qarşısının alınması sahələrində prioritet istiqamətlər aşağıdakılardır:

**6.1.1. rəqabətin inkişafı üzrə tənzimləmə və qiymətləndirmə alətlərinin təkmilləşdirilməsi:**

6.1.1.1. **əsaslandırma:** ölkə iqtisadiyyatında sağlam rəqabət prinsiplərinin təşviqi və bazarların səmərəli fəaliyyətinin dəstəklənməsi müasir rəqabət siyasətinin davamlı inkişafını zəruri edir. Bu məqsədlə bazar iştirakçılarının fəaliyyət imkanlarına təsir göstərən iqtisadi, texniki və inzibati tənzimləmələr, o cümlədən lisenziya və icazə prosedurları təhlil edilərək təkmilləşdiriləcək, prioritet və strateji əhəmiyyətli məhsul bazarlarında rəqabət mühitinin diaqnostikası aparılacaqdır. Eyni zamanda, rəqabətin inkişaf səviyyəsini ölçən göstəricilər sistemi formalaşdırılacaq və həmin göstəricilər əsasında ölkə və regionlar üzrə rəqabət xəritəsi hazırlanacaqdır;

6.1.1.2. **görüləcək tədbirlər:**

6.1.1.2.1. bazar iştirakçılarının fəaliyyət imkanlarının genişləndirilməsi məqsədilə iqtisadi, texniki və inzibati tənzimləmələrin, o cümlədən lisenziya və icazə prosedurlarının təhlili və təkmilləşdirilməsinə dair təkliflər hazırlanması;

6.1.1.2.2. dövlət müəssisələrinin (nəzarət zərfi dövlətə məxsus banklar istisna olmaqla) fəaliyyətində rəqabətli neytrallıq prinsiplərinin tətbiqinin təkmilləşdirilməsinə dair təkliflər hazırlanması;

6.1.1.2.3. xüsusi tənzimləmə tətbiq olunan infrastruktur və xidmət sahələrinin, habelə dövlətin müstəsna iştirakının mövcud olduğu məhsul və xidmət bazarlarının rəqabətli bazar modelinə mərhələli keçidi mexanizminin formalaşdırılması;

6.1.1.2.4. Azərbaycan Respublikası üzrə, o cümlədən regionlar üzrə rəqabətin inkişaf səviyyəsinin qiymətləndirilməsinə imkan verən göstəricilər sisteminin hazırlanması;

6.1.1.3. **gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. bazar iştirakçılarının fəaliyyət imkanlarının genişləndirilməsinə xidmət edən əsaslandırılmış təkliflər paketinin formalaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi;

6.1.1.3.2. dövlət müəssisələrinin fəaliyyətində rəqabətli neytrallığın təşviqinə dair əsaslandırılmış təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi;

6.1.1.3.3. seçilmiş sahələrdə rəqabətli bazar modelinə mərhələli keçidə dair təkliflər, habelə zərurət olduqda xüsusi tənzimləmə tətbiq olunan subyektlər və fəaliyyət istiqamətləri üzrə mövcud siyahılarda dəyişiklik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi;

6.1.1.3.4. ölkədə rəqabət vəziyyətini əks etdirən xəritənin hazırlanması;

6.1.1.4. **gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** bir sıra bazarlarda tənzimləmə tədbirləri nəticəsində qısamüddətli dövr ərzində iqtisadi göstəricilərdə dəyişkənlik halları müşahidə edilə bilər. Qeyd edilən riskin həlli məqsədilə bir sıra dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət müvafiq işçi qrupların yaradılması məqsədəuyğun hesab edilir;

6.1.2. **rəqabət sahəsində elmi-analitik potensialın və rəqabət mədəniyyətinin inkişaf etdirilməsi:**

6.1.2.1. **əsaslandırma:** rəqabət siyasətinin səmərəliliyinin yüksəldilməsi məhsul bazarlarının elmi və məlumat əsaslı təhlilini, müasir diaqnostika metodlarının tətbiqini, habelə bazar iştirakçılarının və istehlakçıların məlumatlılıq səviyyəsinin artırılmasını tələb edir. Elmi tədqiqatların nəticələrinin rəqabət siyasətində tətbiqi, rəqabət iqtisadiyyatı və rəqabət hüququ üzrə mövzuların ali təhsil proqramlarına inteqrasiyası, eləcə də maarifləndirmə tədbirlərinin sistemli təşkili rəqabət mədəniyyətinin inkişafına və bazar münasibətlərinin səmərəliliyinin yüksəldilməsinə xidmət edəcəkdir:

6.1.2.2. **görüləcək tədbirlər:**

6.1.2.2.1. rəqabət sahəsində elmi tədqiqat fəaliyyətinin stimullaşdırılması və onun nəticələrinin tətbiqi imkanlarının genişləndirilməsi;

6.1.2.2.2. rəqabət mühitinin təkmil diaqnostikası üçün müasir metodoloji bazanın formalaşdırılması;

6.1.2.2.3. ali təhsilli mütəxəssislərdə rəqabət mədəniyyətinin və rəqabətlə bağlı səriştələrin formalaşdırılması;

6.1.2.2.4. bazar subyektlərinin və istehlakçıların rəqabət savadlılığının artırılması üçün rəqabətin təşviqi tədbirlərinin həyata keçirilməsi;

6.1.2.3. **gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. rəqabət sahəsində elmi tədqiqatların təşkili və nəticələrinin tətbiqi məqsədilə tədqiqat mərkəzinin təsis edilməsi və fəaliyyətə başlaması;

6.1.2.3.2. rəqabət mühitinin diaqnostikası üzrə metodologiyanın təsdiq edilməsi və seçilmiş məhsul bazarlarında tətbiqinə başlanılması;

6.1.2.3.3. rəqabət sahəsində yenilənmiş təhsil proqramlarının tətbiqinə başlanılması və tələbələrin rəqabət sahəsində bilik və səriştələrlə əhatəsinin təmin edilməsi;

6.1.2.3.4. bazar subyektlərinin və istehlakçıların rəqabət sahəsində məlumatlılıq səviyyəsinin artması;

6.1.2.4. **gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** müvafiq sahədə tədbirlərin icrası əlavə insan, maliyyə və texniki resurslara, habelə aidiyyəti qurumlar arasında əlaqələndirməyə ehtiyac yarada bilər. Bu riskin neytrallaşdırılması məqsədilə resurs ehtiyaclarının əvvəlcədən qiymətləndirilməsi, tədbirlərin mərhələli icrası, mövcud elmi və təhsil potensialından səmərəli istifadə, icra müddətlərinin və məsuliyyət bölgüsünün dəqiq müəyyənləşdirilməsi, eləcə də icra prosesinin müntəzəm monitorinqi nəzərdə tutulur;

6.1.3. **rəqabət sahəsində əməkdaşlığın və institusional imkanların genişləndirilməsi:**

6.1.3.1. **əsaslandırma:** rəqabət siyasətinin səmərəli həyata keçirilməsi aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələndirilmiş fəaliyyətin və məlumat mübadiləsinin təşkilini, sahibkarların məsləhətləşmə proseslərində iştirakını, ictimai məlumatlandırmanın genişləndirilməsini və müvafiq sahədə peşəkar potensialın inkişafını tələb edir. Eyni zamanda, beynəlxalq təşkilatlar və xarici ölkələrin rəqabət orqanları ilə əməkdaşlıq qabaqcıl təcrübənin öyrənilməsinə və müasir yanaşmaların tətbiqinə imkan yaradır. Bu istiqamətlər üzrə sistemli fəaliyyət rəqabət siyasətinin səmərəliliyinin və maraqlı tərəflərin iştirak imkanlarının artırılmasına xidmət edəcəkdir;

6.1.3.2. **görüləcək tədbirlər:**

6.1.3.2.1. tənzimləyici qurumlarla rəqabət siyasətinin həyata keçirilməsi üzrə əməkdaşlığın inkişaf etdirilməsi;

6.1.3.2.2. ölkədə fəaliyyət göstərən sahibkarların rəqabət siyasəti üzrə məsləhətləşmə və əməkdaşlıq proseslərində iştirakının genişləndirilməsi;

6.1.3.2.3. rəqabət orqanının fəaliyyəti barədə ictimai məlumatlandırmanın genişləndirilməsi;

6.1.3.2.4. rəqabətin inkişafının təşviqi üçün bazar iştirakçılarının, tənzimləyici qurumların və digər aidiyyəti dövlət orqanlarının (qurumlarının) kadr potensialının gücləndirilməsi;

6.1.3.2.5. beynəlxalq təşkilatlar və xarici ölkələrin rəqabət orqanları ilə əməkdaşlığın inkişaf etdirilməsi;

6.1.3.3. **gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. tənzimləyici qurumlarla müəyyən edilmiş istiqamətlər üzrə birgə təhlillərin, məlumat mübadiləsinin və əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsi;

6.1.3.3.2. sahibkarlar və onların assosiasiyaları ilə müntəzəm məsləhətləşmələrin keçirilməsi, irəli sürülmüş təkliflərin qiymətləndirilməsi və nəticələr üzrə əks əlaqənin təmin olunması;

6.1.3.3.3. rəqabət siyasəti və rəqabət orqanının fəaliyyəti barədə müntəzəm ictimai məlumatlandırmanın təmin edilməsi və kommunikasiya tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi;

6.1.3.3.4. rəqabət sahəsində təlimlərin keçirilməsi, bazar iştirakçılarının və aidiyyəti dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının təlimlərlə əhatə səviyyəsinin və əldə etdikləri biliklərin artırılması;

6.1.3.3.5. beynəlxalq təşkilatlar və xarici ölkələrin rəqabət orqanları ilə birgə layihələrin, tədqiqatların, təlimlərin və təcrübə mübadiləsi proqramlarının həyata keçirilməsi;

6.1.3.4. **gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:** aidiyyəti dövlət orqanlarının (qurumlarının) fərqli fəaliyyət istiqamətləri və iş rejimləri tədbirlərin əlaqələndirilmiş icrasına və məlumat mübadiləsinin operativliyinə təsir göstərə bilər. Riskin neytrallaşdırılması məqsədilə həmin dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət işçi qrupların yaradılması, məsul əlaqələndirici şəxslərin müəyyən edilməsi, qarşılıqlı fəaliyyət qaydasının və icra qrafikinin hazırlanması nəzərdə tutulur.

## 7. Maliyyələşmə mexanizmləri

Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası üçün tələb olunan xərclərin müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi həyata keçiriləcəkdir.

**1. Milli Fəaliyyət Planının həyata keçirilməsinə dair Tədbirlər Planı**

| Sıra №-si | Tədbirin adı | Əsas icraçıorqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **Prioritet istiqamət 8.1. Rəqabətin inkişafı üzrə tənzimləmə və qiymətləndirmə alətlərinin təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.1. | Bazar iştirakçılarının fəaliyyət imkanlarının genişləndirilməsi məqsədilə iqtisadi, texniki və inzibati tənzimləmələrin, o cümlədən lisenziya və icazə prosedurlarının təkmilləşdirilməsinə dair təkliflər hazırlanması | AİBNDA | İN, RİNN və aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2028 | Təhlil ediləcək məhsul bazarlarının, həmin bazarlarda tətbiq olunan iqtisadi, texniki və inzibati tənzimləmələrin, o cümlədən lisenziya və icazə prosedurlarının müəyyən edilməsi | Müəyyən edilmiş tənzimləmə və prosedurların bazar iştirakçılarının fəaliyyət imkanlarına təsirinin qiymətləndiril-məsi və təkmilləşdirmə ehtiyaclarının prioritetləşdiril-məsi | Bazar iştirakçılarının fəaliyyət imkanlarının genişləndirilməsinə xidmət edən əsaslandırılmış təkliflər paketinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi |
| 8.1.2. | Dövlət müəssisələrinin (nəzarət zərfi dövlətə məxsus banklar istisna olmaqla) fəaliyyətində rəqabətli neytrallıq prinsiplərinin tətbiqinin təkmilləşdirilməsinə dair təkliflər hazırlanması | AİBNDA | AİH, AZCON, İN, RİNN və aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2028 | Rəqabətli neytrallığın qiymətləndiril-məsi üzrə göstəricilərin və meyarların müəyyən edilməsi | Müəyyən edilmiş göstəricilər əsasında dövlət müəssisələrində rəqabətli neytrallıq prinsiplərinin tətbiqi vəziyyətinin təhlili və təkmilləşdirmə istiqamətlərinin müəyyən olunması | Dövlət müəssisələrinin fəaliyyətində rəqabətli neytrallığın təşviqinə dair əsaslandırılmış təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi |
| 8.1.3. | Xüsusi tənzimləmə tətbiq olunan infrastruktur və xidmət sahələrinin, habelə dövlətin müstəsna iştirakının mövcud olduğu məhsul və xidmət bazarlarının rəqabətli bazar modelinə mərhələli keçidi mexanizminin formalaşdırılması | AİBNDA | AİH, AZCON, RİNN, EN, ADSEA, İN və aidiyyəti dövlət orqanları (qurumları) | 2028–2029 | Rəqabətli bazar modelinə mərhələli keçid potensialı olan xüsusi tənzimlənən infrastruktur və xidmət sahələrinin, habelə dövlətin müstəsna iştirakının mövcud olduğu məhsul və xidmət bazarlarının müəyyən edilməsi | Seçilmiş sahələr üzrə beynəlxalq təcrübənin və milli iqtisadiyyatın xüsusiyyətlərinin təhlili, rəqabətli bazar modelinə keçid imkanlarının qiymətləndiril-məsi, habelə xüsusi tənzimləmə tətbiq olunan subyektlər və fəaliyyət istiqamətləri üzrə mövcud siyahıların və əhatə dairəsinin aktuallığının nəzərdən keçirilməsi | Seçilmiş sahələrdə rəqabətli bazar modelinə mərhələli keçidə dair təkliflər, habelə zərurət olduqda xüsusi tənzimləmə tətbiq olunan subyektlər və fəaliyyət istiqamətləri üzrə mövcud siyahılarda dəyişiklik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi |
| 8.1.4. | Azərbaycan Respublikası üzrə, o cümlədən regionlar üzrə rəqabətin inkişaf səviyyəsinin qiymətləndirilməsinə imkan verən göstəricilər sisteminin hazırlanması | AİBNDA | DSK, İN, RİNN və aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2029 | Göstəricilər sisteminin metodoloji çərçivəsinin, əhatə dairəsinin və məlumat mənbələrinin müəyyən edilməsi | Müvafiq məlumatların toplanılması və təhlili, göstəricilərin hesablanması və sınaq qiymətləndiril-məsinin aparılması | Ölkə və regionlar üzrə rəqabətin inkişaf səviyyəsini əks etdirən xəritənin hazırlanması və istifadəyə verilməsi |
| **Prioritet istiqamət 8.2. Rəqabət sahəsində elmi-analitik potensialın və rəqabət mədəniyyətinin inkişaf etdirilməsi** | | | | | | | |
| 8.2.1. | Rəqabət sahəsində elmi tədqiqat fəaliyyətinin stimullaşdırılması və onun nəticələrinin tətbiqi imkanlarının genişləndirilməsi | AİBNDA | ETN və aidiyyəti dövlət orqanları (qurumları) | 2028–2029 | Rəqabət sahəsində elmi tədqiqatların təşkili və nəticələrinin tətbiqi üzrə beynəlxalq təcrübənin və mövcud ehtiyacların öyrənilməsi | Tədqiqat mərkəzinin təşkilati modeli, fəaliyyət istiqamətləri və yaradılması ilə bağlı layihənin hazırlanması | Tədqiqat mərkəzinin təsis edilməsi və fəaliyyətə başlaması |
| 8.2.2. | Rəqabət mühitinin təkmil diaqnostikası üçün müasir metodoloji bazanın yaradılması | AİBNDA | İN, RİNN və aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2028 | Qabaqcıl ölkələrdə tətbiq olunan diaqnostika metodlarının öyrənilməsi və Azərbaycan Respublikasında tətbiqi mümkün olan metodların seçilməsi | Seçilmiş metod və alətləri əhatə edən metodologiyanın hazırlanması və sınaqdan keçirilməsi | Metodologiyanın təsdiq edilməsi və seçilmiş məhsul bazarlarının diaqnostikasında tətbiqinə başlanılması |
| 8.2.3. | Ali təhsilli mütəxəssislərdə rəqabət mədəniyyətinin və rəqabətlə bağlı səriştələrin formalaşdırılması | ETN | AİBNDA və aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2029 | Müvafiq ali təhsil proqramlarının təhlili və rəqabət sahəsində səriştələrin inteqrasiyası üçün uyğun ixtisas və fənlərin müəyyən edilməsi | Rəqabət sahəsində səriştələrin formalaşdırıl-ması məqsədilə mövzuların müəyyən olunması və onların ali təhsil müəssisələrində müvafiq fənlər üzrə təhsil proqramlarına inteqrasiyası | Yenilənmiş təhsil proqramlarının tətbiqinə başlanılması, tələbələrin rəqabət sahəsində bilik və səriştələrlə əhatəsinin təmin edilməsi |
| 8.2.4. | Bazar subyektlərinin və istehlakçıların rəqabət savadlılığının artırılması üçün rəqabətin təşviqi tədbirlərinin həyata keçirilməsi | AİBNDA | Aidiyyəti dövlət orqanları (qurumları) | 2027 | Hədəf qrupların, prioritet mövzuların və maarifləndirmə vasitələrinin müəyyən edilməsi, illik fəaliyyət planının hazırlanması | Maarifləndirici materialların hazırlanması və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi | Bazar subyektlərinin və istehlakçıların məlumatlılıq səviyyəsinin artması |
| **Prioritet istiqamət 8.3. Rəqabət sahəsində əməkdaşlığın və institusional imkanların genişləndirilməsi** | | | | | | | |
| 8.3.1. | Tənzimləyici qurumlarla rəqabət siyasətinin həyata keçirilməsi üzrə əməkdaşlığın inkişaf etdirilməsi | AİBNDA | İN, RİNN və aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2028 | Qurumlararası əməkdaşlığın prioritet istiqamətlərinin və məlumat mübadiləsinəehtiyacların müəyyən edilməsi | Birgə fəaliyyət, məsləhətləşmə və məlumat mübadiləsini əhatə edən əməkdaşlıq mexanizminin hazırlanması | Müəyyən edilmiş istiqamətlər üzrə birgə təhlillərin, məlumat mübadiləsinin və əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsi |
| 8.3.2. | Ölkədə fəaliyyət göstərən sahibkarların rəqabət siyasəti üzrə məsləhətləşmə və əməkdaşlıq proseslərində iştirakının genişləndirilməsi | AİBNDA | Aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2028 | Müvafiq assosiasiya-ların, birliklərin və sahibkar qruplarının, habelə müzakirə olunacaq prioritet mövzuların müəyyən edilməsi | Sahibkarlarla müntəzəm məsləhətləşmə-lərin və rəy mübadiləsinin təşkili mexanizminin formalaşdırıl-ması | Sahibkarlarla məsləhətləşmə-lərin keçirilməsi, təqdim olunmuş təkliflərin qiymətləndirilməsi və nəticələr barədə əks-əlaqənin təmin edilməsi |
| 8.3.3. | Rəqabət orqanının fəaliyyəti barədə ictimai məlumatlandırmanın genişləndirilməsi | AİBNDA | AZƏRTAC və AzTV | 2027–2029 | Hədəf auditoriyaların, prioritet mövzuların və kommunikasiya kanallarının müəyyən edilməsi, kommunikasiya planının hazırlanması | Rəqabət siyasəti və rəqabət orqanının fəaliyyəti barədə məlumatlandırıcı materialların hazırlanması və yayımına başlanılması | Rəqabət sahəsində müntəzəm ictimai məlumatlandırma-nın təmin edilməsi və həyata keçirilmiş kommunikasiya tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi |
| 8.3.4. | Rəqabətin inkişafının təşviqi üçün bazar subyektlərinin, o cümlədən tənzimləyici və digər dövlət orqanlarının (qurumlarının) kadr potensialının gücləndirilməsi | AİBNDA | Aidiyyəti dövlət orqanları (qurumları) | 2027 | Bazar iştirakçılarının və aidiyyəti dövlət orqanlarının (qurumlarının) təlim ehtiyaclarının və prioritet mövzuların müəyyən edilməsi | Təlim proqram-larının və materiallarının hazırlanması, illik təlim planının təsdiq edilməsi | Təlimlərin keçirilməsi, iştirakçıların əhatə səviyyəsinin və əldə olunmuş biliklərin artırılması |
| 8.3.5. | Beynəlxalq təşkilatlar və xarici ölkələrin rəqabət orqanları ilə əməkdaşlığın inkişaf etdirilməsi | AİBNDA | Aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2029 | Beynəlxalq əməkdaşlığın prioritet istiqamətlərinin və tərəfdaş qurumların müəyyən edilməsi | Birgə layihələr, tədqiqatlar, təlimlər və təcrübə mübadiləsi üzrə əməkdaşlıq təşəbbüslərinin hazırlanması | Müəyyən edilmiş istiqamətlər üzrə birgə layihələrin, tədbirlərin və təcrübə mübadiləsi proqramlarının həyata keçirilməsi |

**Akronimlər**

ADSEA - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi
AİBNDA - Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi AİH - Azərbaycan İnvestisiya Holdinqi
AZCON - Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) AZƏRTAC
- Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC)
AzTV - "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti
DSK - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
EN - Azərbaycan Respublikasının Energetika Nazirliyi ETN - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İN - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
RİNN - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

# Ekran arxasındakı təhlükə

**Karlo Kollodinin klassik "Pinokyo" əsərində Ciminy Kriket taxtadan düzəldilmiş balaca kuklanın vicdan səsini simvolizə edirdi. Lakin Pinokyo hər dəfə asan yollara aldanıb "Oyuncaqlar şəhərinə" qaçdıqda, dərhal reallıqdan uzaqlaşır, nəzarəti itirir və təhlükəli bir tələnin içinə düşürdü.**



Bu günün azyaşlıları da smartfon və planşetlərin ekranları vasitəsilə məhz həmin illüziya dolu şəhərə yuvarlanırlar. Lakin reallıq odur ki, bu virtual sərgüzəştlər uşaqlar üçün ciddi psixoloji və sosial fəsadlarla nəticələnən qlobal bir kabusa çevrilməkdədir.

Müasir dövrdə uşaqların rəqəmsal mühitdə qarşılaşdığı risklər məzmunun məhvedici təbiəti ilə birbaşa bağlıdır. Valideynlərin uşaqları təhlükəsiz zənn edərək animasiya və nağıl qəhrəmanları vasitəsilə güvənlə baş-başa buraxdığı rəqəmsal platformalar alt qatlarında zərərli, şiddət və qorxu elementləri ehtiva edən tələlərlə doludur. Süni intellekt əsaslı moderator sistemlərinin hələ də yüksək səhv payı ilə işləməsi, uşaqların tənzimlənməmiş alqoritmlərin ümidinə buraxılması deməkdir.

Uşaqlar saatlarla ekran qarşısında qaldıqca sadəcə fiziki hərəkətsizliklə üzləşmirlər, eyni zamanda reallıq duyğuları zədələnir, diqqət dağınıqlığı artır və real insan ünsiyyətindən uzaqlaşaraq dərin sosial tənhalığa sürüklənirlər. Qlobal miqyasda olduğu kimi, ölkəmizdə də cəmiyyəti dərindən düşündürən bu mühüm məsələ dövlətin diqqətindədir. Prezident İlham Əliyevin imzaladığı "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" fərman bu sahədə dövlət siyasətinin əsas strategiyasını müəyyənləşdirib. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması, onlara mənfi təsir göstərən zərərli məzmunun məhdudlaşdırılması və internet şəbəkələrində hüquqlarının qorunması istiqamətində kompleks mexanizmlərin formalaşdırılmasına xidmət edir.

Bununla belə, dünyada bu təhlükələrə qarşı mübarizə artıq sadə tövsiyə mərhələsini keçərək sərt hüquqi və inzibati müstəviyə keçib. Avropa İttifaqında qəbul edilən "Rəqəmsal Xidmətlər Aktı" yeniyetmələrin və azyaşlıların məxfiliyini qorumaqla yanaşı, platformaları uşaqlarda asılılıq yaradan zərərli alqoritmlərdən və manipulyativ dizaynlardan uzaq olmağa məcbur edir. ABŞ və Böyük Britaniyada uşaqların onlayn təhlükəsizliyini təmin etmək, onların məlumatlarının qanunsuz yığılmasının qarşısını almaq məqsədilə bir çox texnologiya nəhənginə qarşı milyonlarla dollar dəyərində tənbeh cərimələri tətbiq olunub. Həmçinin bir sıra ölkələrdə azyaşlıların valideyn razılığı olmadan sosial mediadan istifadəsinə, xüsusən də gecə saatlarında platformalara girişinə sərt qadağalar və məhdudiyyətlər qoyulub.

Beynəlxalq təşkilatların və aparıcı institutların təqdim etdiyi son statistik faktlar vəziyyətin ciddiliyini bir daha göz önünə sərir. Araşdırmalar göstərir ki, erkən yaşda, xüsusilə 2 yaşa qədər ekran təsirinə məruz qalan uşaqlarda nitq inkişafı ləngiyir, gündə 4 saatdan artıq ekran qarşısında vaxt keçirən məktəbəqədər yaşlı uşaqlarda isə empatiya qurmaq bacarığı zəifləyir və sosial adaptasiya problemi artır. Məhz buna görə də Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və beynəlxalq pediatrlar assosiasiyaları uşaqların rəqəmsal mühitlə təmasını ciddi şəkildə məhdudlaşdırmağı tələb edirlər. Texnologiya korporasiyalarının tətbiq etdiyi "sonsuz səhifə", avtomatik oxutma və hədəflənmiş bildiriş funksiyaları uşaqların hələ formalaşmamış iradə sistemini zəiflədərək onları rəqəmsal labirintlərdə əsirə çevirir. Dünyanın bir çox qabaqcıl ölkələrində məktəblərdə və təhsil ocaqlarında smartfonların istifadəsinə tamamilə qadağaların qoyulması da məhz bu qlobal təhlükəyə qarşı həyata keçirilən qətiyyətli tədbirlərdəndir.

Bütövlükdə rəqəmsal tələlərin doğurduğu sosial-emosional problemlərin qarşısını almaq üçün sadəcə dövlət qanunları və ya platformaların tənzimlənməsi kifayət etmir, hər bir ailənin daxili intizamı və rəqəmsal savadlılığı həlledici rol oynayır. Stol arxasına, yataq otağına və ailə ünsiyyətinin mərkəzinə telefonun daxil olmasına imkan verməyən valideyn iradəsi uşaqlarımızın sağlam gələcəyini qoruyan ən güclü və etibarlı qalxandır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Bilmək istəyirəm

***- Uzun müddətdir ki, şəkərli diabet xəstəliyindən əziyyət çəkirəm. Bilmək istəyirəm ki, şəkərli diabet xəstəliyi ilə bağlı dövlət tərəfindən hansı sosial təminatlar nəzərdə tutulub?***

***Səadət MƏHƏRRƏMOVA,***
***Sumqayıt şəhəri***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, şəkərli diabet xəstəliyi olan şəxslər üçün xüsusi dövlət qayğısı və sosial təminat mexanizmləri müəyyən edilmişdir. Bu sahədə əsas normativ hüquqi akt 23 dekabr 2003-cü il tarixli "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanunudur. Sözügedən qanun Azərbaycan Respublikasında şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyən edir, bu xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyir.

Şəkərli diabet - insulin (mədəaltı vəzinin hormonu) çatışmazlığı və keyfiyyətinin azalması nəticəsində qanda qlükozanın səviyyəsinin artması ilə səciyyələnən xroniki xəstəlikdir.

"Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Qanunun 4.1-ci maddəsinə görə, şəkərli diabet xəstəliyinin profilaktikası və onunla mübarizə ilə bağlı tədbirləri həyata keçirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən "Şəkərli diabet üzrə Dövlət Proqramı" hazırlanır və təsdiq edilir.

Bundan başqa, qanunun tələbinə görə şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin dövlət tibb müəssisələrində müayinəsi və müalicəsi icbari tibbi sığorta vəsaitləri hesabına maliyyələşdirilir (maddə 6.1), şəkərli diabet xəstəliyinə tutulmuş şəxslər həcmi və keyfiyyət standartları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tibbi yardımla təmin olunurlar (maddə 7.1), həmçinin sözügedən şəxslərin əmək hüquqları yalnız Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilən işçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli peşələr (vəzifələr) və iş yerləri üzrə məhdudlaşdırıla bilər (maddə 8.1).

Sizin bu sahədə bir sıra hüquqlarınız və yararlana biləcəyiniz təminatlarınız mövcuddur:

İlk növbədə, pulsuz tibbi təminat və dərman təchizatıdır ki, siz dövlət tibb müəssisəsində qeydiyyatda olmaqla şəkərli diabet xəstələri üçün nəzərdə tutulan insulin və digər şəkərsalıcı həblərlə, habelə özünənəzarət vasitələrilə pulsuz təmin oluna bilərsiniz.

Eyni zamanda müəyyən olunmuş dövlət proqramı çərçivəsində şəkərli diabet xəstələrinin dispanser müşahidəsi, müayinəsi və müalicəsi pulsuz həyata keçirilir ki, Siz bundan təmənnasız olaraq faydalana bilərsiniz.

Bundan başqa, sizin uzun müddət bu xəstəlikdən əziyyət çəkməyiniz xəstəliyin ağırlaşmalarının (məsələn, nefropatiya və s.) yaranması ehtimalını artırır ki, gələcəkdə Sizə əlilliyin təyin olunması və sosial müavinətin verilməsi gündəmə gələ bilər. Nəzərə almaq lazımdır ki, təkcə "şəkər xəstəsi olmaq" dərhal əlillik hüququ vermir. Lakin xəstəlik orqanizmin həyat fəaliyyətini və ya əmək qabiliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdırıbsa, əlillik dərəcəsi təyin edilə bilər. Siz əlillik təyin edildiyi halda, iş stajınızdan asılı olaraq əlilliyə görə əmək pensiyası və ya sosial müavinət almaq hüququ qazanırsınız.

Əmək sahəsinə gəlincə, əgər Siz rəsmi olaraq çalışırsınızsa, xəstəliklə bağlı Sizə əlillik dərəcəsi təyin olunarsa, o zaman Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən bir sıra güzəştlər tətbiq olunur. Məsələn, siz qısaldılmış iş vaxtından (I və II dərəcə əlillər üçün həftəlik iş vaxtı maksimum 36 saat müəyyən edilir), məzuniyyət hüququndan (əlilliyi olan işçilərə əsas məzuniyyət minimum 42 təqvim günü verilir) yararlana, gecə və əlavə işlərdən azad oluna (əlilliyi olan şəxslər onların yazılı razılığı olmadan gecə vaxtı, iş vaxtından kənar və ya istirahət günlərində işə cəlb edilə bilməzlər) bilərsiniz.

Bütün qeyd olunanlarla yanaşı, qanunvericiliyə əsasən, sizə müəyyən vergi güzəştləri də tətbiq oluna bilər. Belə ki, əlillik dərəcəsi təyin olunarsa, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən fiziki şəxslərin gəlir vergisindən güzəştlər tətbiq edilir.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Kanada Ukraynaya HHM sistemi üçün raket almağa 350 milyon dollar ayıracaq

**Kanada Ukraynanın hava hücumundan müdafiə sistemləri üçün raketlərin alınmasına 350 milyon Kanada dolları (təxminən 218 milyon avro) ayıracaq. Bu barədə Baş nazir Mark Karni Kalqaridə Ukrayna Prezidenti Volodimir Zelenski ilə birgə mətbuat konfransında bildirib.**



Karninin sözlərinə görə, raketlər ABŞ-nin Jumpstart mexanizmi vasitəsilə təchiz ediləcək. "Bu avadanlıq paketi Ukrayna xalqını, ölkənin infrastrukturunu və səmasını qorumağa kömək edəcək", - deyə o əlavə edib. Kanadanın baş naziri həmçinin qışdan əvvəl Ukraynanın Rusiyanın hücumuna məruz qalan enerji şəbəkəsinə yardım üçün tədbirləri açıqlayıb: Ottava qışda qazın alınması və çatışmazlıq dövrlərində elektrik enerjisi istehsalı da daxil olmaqla, enerji təhlükəsizliyini dəstəkləmək üçün Avropa Yenidənqurma və İnkişaf Bankına (AYİB) ümumilikdə təxminən 435 milyon Kanada dolları (təxminən 271 milyon avro) məbləğində yeni kredit zəmanətləri verəcək.

Bundan əlavə, Kanada Ukraynanın bərpası üçün 200 milyon Kanada dolları (təxminən 125 milyon avro) güzəştli kredit, eləcə də Ukrayna Silahlı Qüvvələri veteranlarının reabilitasiyası üçün 40,1 milyon Kanada dolları (25 milyon avro) və Rusiya tərəfindən qanunsuz olaraq aparılmış ukraynalı uşaqların geri qaytarılması səylərini dəstəkləmək üçün 6 milyon Kanada dolları (3,75 milyon avro) ayıracaq.

Kalqaridə V.Zelenski və M.Karni 100 illik tərəfdaşlıq haqqında bəyannamə də imzalayıblar. Sənəddə müdafiə innovasiyası sahəsində əməkdaşlıq nəzərdə tutulur. M.Karni vurğulayıb ki, Ottava növbəti iki il ərzində dron istehsal gücünü 1 milyon PUA-ya çatdırmağı planlaşdırır. Kanada onların üçdəbirini Kiyevə bağışlamağı öhdəsinə götürür.

Ukraynanın xarici işlər naziri Andrey Sibiqa isə DW radiostansiyası müxbirinə verdiyi şərhdə vurğulayıb ki, Ukrayna təhlükəsizlik məsələlərində unikal təcrübəsini, eləcə də döyüş meydanında hər gün sınaqdan keçirilən hərbi texnologiyalarını Kanada ilə bölüşəcək. Ölkələr həmçinin kəşfiyyat, kibermüdafiə, hibrid təhdidlərə qarşı mübarizə və dezinformasiya sahələrində əməkdaşlığı dərinləşdirəcəklər. Kanada həm də Ukraynanın digər müttəfiqləri ilə birlikdə Rusiyanın gələcək təcavüzünün qarşısını almaq üçün təhlükəsizlik zəmanəti mexanizminin yaradılmasında iştirak etməyə hazır olduğunu bəyan edib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Alimlər ürək sağlamlığı üçün gündə neçə addım yeriməyin lazım olduğunu müəyyən ediblər

**Ürək-damar xəstəlikləri riskini əhəmiyyətli dərəcədə azaltmaq üçün gündə 10 min addım atmağa ehtiyac yoxdur. Bu, tədqiqatçıların yüksək qan təzyiqi olan 36 mindən çox Böyük Britaniya sakininin məlumatlarını araşdırdıqdan sonra əldə etdikləri nəticədir. Nəticələr "European Journal of Preventive Cardiology" elmi jurnalında dərc edilib.**



Tədqiqat iştirakçıları aktivlik izləyicilərindən istifadə ediblər və alimlər onların sağlamlıqlarını təxminən 10 il izləyiblər. Məlum olub ki, gündəlik aktivliyin artması həqiqətən ciddi ürək və damar problemləri riskini azaldır. Məsələn, iştirakçılar arasında ən aşağı aktivlik səviyyəsi orta hesabla gündə təxminən 2344 addım olub. Əlavə hər 1000 addım isə ciddi ürək-damar hadisələri riskini təxminən 17, o cümlədən insult riskini 25, ürək çatışmazlığını 22 və infarkt riskini 9 faiz azaldıb. Özü də təxminən 3500 addımın faydaları baza aktivlik səviyyəsindən asılı olmayaraq müşahidə edilib. Bu o deməkdir ki, əlavə 1000 addım həm gündə təxminən 3 min addım yeriyən, həm də əlavə 7 min və ya daha çox addım atan başqa biri üçün faydalı ola bilər.

Tədqiqatçılar həmçinin addım sayının artırılmasının nəzərəçarpacaq əlavə təsir yaratmadığı həddi aşkar etdilər: təxminən 10 min addımdan sonra yeriməyin faydası olmur. Beləliklə, tədqiqatın nəticələri hökmən 10 min addım hədəfinə çatmaq ehtiyacını şübhə altına alır. Gündəlik fiziki fəaliyyətdə nisbətən kiçik bir artım belə, xüsusən də yüksəktəzyiqli insanlarda ürək-damar sağlamlığını yaxşılaşdıra bilər.

Eyni zamanda tədqiqat addım sayı ilə xəstəlik riski arasında statistik əlaqəni nümayiş etdirsə də, onun artırılmasının ürək-damar çatışmazlığı üzündən baş verə bilən hadisələrin birbaşa qarşısını aldığını sübut etməyib.

*R.CƏFƏROV,*
*"Azərbaycan"*

## Dünya olduğu kimi

# Qədim məzarlarda status nişanələri



Almaniyanın şərqində, Krauşvits şəhərində aparılan arxeoloji qazıntılar zamanı təxminən 5 min il əvvələ aid 15 məzar aşkarlanıb. Burada həm kişilər, həm də qadınlar dəfn olunub və onların qəbirlərindən müxtəlif məişət və bəzək əşyaları tapılıb. Saksoniya-Anhalt Torpaq Abidələrin Qorunması və Arxeologiya İdarəsinin arxeoloqu Oliver Ditrix bildirib ki, həmin dövrdə kişi və qadın məzarlarını qəbir əşyalarına görə fərqləndirmək mümkündür. Kişilərin qəbirlərinə daha çox baltalar, qadınların məzarlarına isə zinət və bəzək əşyaları qoyulurdu.

Arxeoloqların diqqətini xüsusilə üç qadının məzarından tapılan deşilmiş it dişləri cəlb edib. Ehtimal olunur ki, bu dişlər dəri və ya parçadan hazırlanmış çantaların üzərinə bəzək kimi tikilib. Belə çantaların körpələrin daşınması üçün istifadə edilməsi də mümkün hesab olunur. Oxşar tapıntıların indiyədək əsasən yüksək sosial mövqeyə malik qadınların məzarlarında aşkarlanması onların status göstəricisi olması ehtimalını gücləndirir.

Ditrixin fikrincə, çoxlu sayda it dişinin əldə edilməsi asan olmayıb. Hətta bu məqsədlə müəyyən itlərin xüsusi olaraq yetişdirilməsi ehtimalı da nəzərdən keçirilir. Dişlərin toplanması, deşilməsi və onlardan mürəkkəb bəzəklərin hazırlanması böyük əmək tələb etdiyindən belə əşyalar qiymətli hesab edilə və sahibinin cəmiyyətdəki mövqeyini göstərə bilərdi.

Tapıntılar İpli keramika mədəniyyətində itlərin yalnız gündəlik həyatda deyil, insanların inanclarında da xüsusi yer tutduğunu göstərir. Əvvəlki qazıntılar zamanı insanlarla birlikdə dəfn edilmiş itlərə, eləcə də ayrıca basdırılmış və ehtimal ki, qurban verilmiş heyvan qalıqlarına rast gəlinib. Tədqiqatçıların fikrincə, bu cür dəfn və qurbanvermə ənənələri insanlarla itlər arasında həm simvolik, həm də emosional bağlılığın mövcudluğuna işarə edir. Ditrix bunu "İnsan yalnız onun üçün əhəmiyyətli olan bir şeyi qurban verir" fikri ilə izah edir.

# Vikinqlərin gizli gümüş xəzinəsi



Finlandiyanın cənubunda aparılan arxeoloji araşdırmalar zamanı Son Dəmir dövrünə aid böyük sikkə və gümüş xəzinəsi aşkarlanıb. Ümumi çəkisinin təxminən 4,5 kiloqram olduğu bildirilən tapıntı ölkədə bu dövrə aid ən mühüm xəzinələrdən biri hesab olunur. Ərazidə metal detektorları ilə aparılan ilkin axtarışlar zamanı torpağın altında çoxsaylı sikkələr müəyyən edilib. Araşdırmalar onların bir hissəsinin ağcaqayın qabığından hazırlanmış qabda və ya bükümdə gizlədildiyini göstərib. Tapıntıların arxeoloji kontekstinin qorunması üçün ərazi nəzarətə götürülüb və materiallar mütəxəssislərə təhvil verilib.

Sonrakı qazıntılar zamanı təxminən 45 santimetr dərinlikdə, daşların arasında yerləşdirilmiş əlavə gümüş əşyalar da aşkarlanıb. Tapıntıların eyni xəzinənin hissələri olub-olmadığını və nə vaxt torpağa basdırıldığını müəyyənləşdirmək üçün sikkələrin tarixləndirilməsi və digər materialların təhlili aparılır. Xəzinənin tərkibi həmin dövrdə Finlandiya ərazisinin Skandinaviya və Baltik regionu ilə iqtisadi əlaqələri, gümüşün dövriyyəsi və insanların qiymətli əşyaları hansı şəraitdə gizlətməsi barədə yeni məlumatlar verə bilər.

# Okeanın dibində sirli izlər



Kuba və Haiti yaxınlığında Atlantik okeanının dibinin xəritələşdirilməsi zamanı qeydə alınan qeyri-adi həndəsi formalar qədim batmış yaşayış məskəni ilə bağlı iddiaları yenidən gündəmə gətirib. Xəritələrdə görünən bir-birini kəsən xətlər və nizamlı strukturların süni mənşəli ola biləcəyi irəli sürülüb. Təxminən 11x5 kilometrlik ərazini əhatə etdiyi bildirilən bu strukturların qədim tikililərin qalıqları ola biləcəyi iddiasını irəli sürənlərdən biri Skott Uorinqdir. Onun fikrincə, bəzi xətlərin həddindən artıq nizamlı görünməsi onların təbii geoloji proseslərlə yaranması ehtimalını azaldır. Lakin bu iddianı təsdiqləyən arxeoloji sübut yoxdur. Dəniz dibinin xəritələşdirilməsi zamanı müxtəlif cihazlarla ayrı-ayrı vaxtlarda toplanmış məlumatların birləşdirilməsi xəritələrdə süni görünən xətlər, kəsişmələr və həndəsi formalar yarada bilər. Bu səbəbdən görüntülərin qədim şəhərin qalıqları kimi təqdim edilməsi elmi baxımdan hələ əsaslandırılmayıb.

Mütəxəssislər belə strukturların mənşəyini müəyyənləşdirmək üçün daha yüksəkdəqiqlikli tədqiqatların və ərazinin birbaşa araşdırılmasının tələb olunduğunu bildirirlər. Hazırda Atlantik okeanının həmin hissəsində batmış qədim şəhərin aşkar edildiyini söyləmək üçün kifayət qədər elmi əsas yoxdur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

***Xaçmaz şəhəri, Mehmandarov küçəsi, ev 9 ünvanında yaşayan Rusiya vətəndaşı Valekh Huseınova (Valekh Guseınov) "Şahin" MTK tərəfindən Xırdalan şəhəri, Axundov küçəsi, 39-cu bina, 113 saylı mənzilə dair verilmiş maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Eldar, Xanlar, Şahmar, Şahlar və Elmar Vəliyev qardaşları **VAQİF CƏFƏROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3323
Sifariş 1152

Qiyməti 60 qəpik